Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 164 (8187) ÇƏRŞƏNBƏ AXŞAMI, 30 iyul 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## *Brüno Lö Mer:* "Fransa Azərbaycanla siyasi və iqtisadi sahələrdə əməkdaşlığı genişləndirməkdə maraqlıdır"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 29-da Fransanın İqtisadiyyat və Maliyyə naziri Brüno Lö Merin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Fransaya ötənilki uğurlu səfərini məmnunluqla xatırlayan dövlət başçısı Fransa Prezidenti Emmanuel Makron ilə keçirilən səmərəli müzakirələri Azərbaycanla Fransa arasında tərəfdaşlıq əlaqələrinin inkişafına xidmət edən amil kimi dəyərləndirdi. Prezident İlham Əliyev iqtisadi əməkdaşlığımızın uğurla inkişaf etdiyini bildirərək, bu baxımdan biznes əlaqələrinin və biznes nümayəndələrinin qarşılıqlı səfərlərinin önəmini qeyd etdi. Dövlət başçısı fransız şirkətlərinin Azərbaycandakı səmərəli fəaliyyətini qeyd edərək onların sayının artmasından məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev investisiya sahəsində də yaxşı əməkdaşlığın həyata keçirildiyini vurğuladı. Dövlət başçısı Fransanın İqtisadiyyat və Maliyyə naziri Brüno Lö Merin ölkəmizə səfərinin əməkdaşlığımızın perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi və bu səfərin əlaqələrimizin daha da inkişaf etdirilməsinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

Fransanın İqtisadiyyat və Maliyyə naziri Brüno Lö Mer, ilk növbədə, Fransa Respublikasının Prezidenti Emmanuel Makronun salamlarını dövlət başçısına çatdırdı. Brüno Lö Mer Bakının abadlığının və inkişafının onlarda xoş təəssürat doğurduğunu vurğuladı. O, Fransa tərəfinin Azərbaycanla siyasi və iqtisadi sahələrdə əməkdaşlığı genişləndirməkdə maraqlı olduğunu dedi.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın mövqeyi bir daha vurğulandı, münaqişənin nizama salınması ilə əlaqədar fikir mübadiləsi aparıldı.

Görüşdə neft, qaz, nəqliyyat, infrastruktur, ekologiya və digər sahələrdə əməkdaşlıq və görüləcək işlər müzakirə edildi.

Dövlət başçısı Fransa Respublikasının Prezidenti Emmanuel Makronun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Fransa Prezidentinə çatdırmağı xahiş etdi.

## Azərbaycanda iqtisadi sahədə böyük islahatlar aparılır





Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva iyulun 29-da Fransa Respublikasının İqtisadiyyat və Maliyyə naziri Brüno Lö Merlə görüşüb.

AZƏRTAC xəbər verir ki, əvvəlcə birgə foto çəkdirildi.

Birinci vitse-prezident Mehriban Əliyeva bu ilin martında Parisə səfəri zamanı Fransanın İqtisadiyyat və Maliyyə naziri Brüno Lö Merlə görüşü və aparılan müzakirələri xatırladı, qonağın Azərbaycana səfərinin uğurla keçəcəyinə əminliyini ifadə etdi. Mehriban Əliyeva Azərbaycan ilə Fransa arasında münasibətlərin dostluq və qarşılıqlı maraqlara əsaslandığını qeyd etdi, siyasi əlaqələrin yüksək səviyyədə olduğunu bildirdi. İqtisadi əlaqələrin münasibətlərimizin inkişafında xüsusi yer tutduğunu vurğulayan Birinci vitse-prezident son zamanlar bu sahədə müşahidə edilən müsbət dinamikanın ölkələrimiz arasındakı əlaqələrin daha da genişlənməsinə töhfə olacağını dedi. Birinci vitse-prezident mövcud potensialdan tam istifadə etməyin vacibliyini diqqətə çatdırdı.

Mehriban Əliyeva Azərbaycanda son illərdə iqtisadi sahədə böyük islahatların aparıldığını qeyd etdi, əsas məqsədin iqtisadiyyatın şaxələndirilməsi olduğunu bildirdi, özəl sektorun rolunun artırılmasının zəruriliyinə toxundu, bu sahədə Fransanın təcrübəsinin maraq doğurduğunu dedi.

Azərbaycana ilk dəfə səfər etdiyini bildirən Fransanın İqtisadiyyat və Maliyyə naziri ölkəmizin regionda xüsusi mövqeyə malik olduğunu vurğuladı. Brüno Lö Mer də ölkələrimizin iqtisadi əməkdaşlığının böyük potensialını qeyd etdi, Azərbaycan və Fransa şirkətləri arasında əlaqələrin daha da genişləndirilməsinin və inkişaf etdirilməsinin əhəmiyyətini vurğuladı.

Görüşdə ölkələrimiz arasında qeyri-neft sektorunda həyata keçirilən layihələr, Fransa şirkətlərinin Azərbaycanın özəl qurumları ilə işgüzar əlaqələri və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.



# Müstəqil siyasət, etibarlı tərəfdaş

## İlham Əliyevin xarici siyasət strategiyası Azərbaycanın beynəlxalq münasibətlər sistemində yerini daha da möhkəmləndirir

İqtisadi inkişaf dövrünü yaşayan Azərbaycan dünya birliyinin fəal aktorlarından birinə çevrilib. Yerləşdiyi regionda iqtisadi və siyasi cəhətdən böyük nüfuza malik olan ölkəmiz hər keçən gün beynəlxalq birlikdəki yerini möhkəmləndirir.

Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasət kursu ölkəmizi dünya birliyinin etibarlı və məsuliyyətli tərəfdaşına çevirib. Azərbaycanın daha da qüdrətlənməsi üçün böyük əzmlə çalışan cənab İlham Əliyevin müstəqil siyasət yürütməsi ölkəmizin müasir beynəlxalq münasibətlər sistemində mövqeyini gücləndirir. Xarici siyasət sahəsində əldə olunan uğurlar Azərbaycanın Avropaya və dünya birliyinə inteqrasiyasını daha da sürətləndirir. Azərbaycanla sıx münasibətlər qurmaq istəyən ölkələrin sayının ildən-ilə artması da deyilənlərin təsdiqidir.

Xarici siyasət hər bir dövlətin beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsinə, ikitərəfli və çoxtərəfli münasibətlərin gücləndirilməsinə, mövcud problemlərin həllinə yönəldilir. Dövlətçiliyin, müstəqilliyin qorunması, milli təhlükəsizliyin təmin olunması xarici siyasətdə mühüm istiqamətlər kimi nəzərdən keçirilir.

Bugünkü qüdrətli Azərbaycanın milli və dövlətçilik baxımından maraqlarına yüksək səviyyədə cavab verən xarici siyasət strategiyasının əsas istiqamətlərini Ulu Öndər Heydər Əliyev müəyyənləşdirib. Bu kursun əsas xətti dövlət müstəqilliyimizi möhkəmləndirmək, ölkənin təhlükəsizliyini, milli dövlətçilik hüquqlarını təmin etmək və beynəlxalq təhlükəsizlik sistemi ilə bağlamaqdan ibarətdir. Bu prioritetlər Azərbaycanın xarici siyasət kursunun əsasını təşkil edir.

İnamla deyə bilərik ki, cənab İlham Əliyevin həyata keçirdiyi müstəqil xarici siyasət məhz bu əsaslar üzərində qurulub, ölkəmizin beynəlxalq münasibətlər sistemində yeri daha da möhkəmlənib. Bütün bunlar isə diplomatik reallıqlar fonunda respublikamızın imicini xeyli yüksəldib.

Dinamik və praqmatik xarakter daşıyan xarici siyasət kursu ilk növbədə ölkəmizin milli maraqlarının təmin olunmasına xidmət edir. Rəsmi Bakı dünyanın fövqəlgücləri sayılan ölkələrlə - ABŞ, Rusiya, Çin, Almaniya, Fransa, Türkiyə və s. yeni Avropa İttifaqı və İslam ölkələri ilə bərabərhüquqlu əməkdaşlıq edir. 2011-ci ildə 155 ölkənin səsini qazanaraq BMT Təhlükəsizlik Şurasının üzvü seçilən Azərbaycan qlobal məsələlərin həllində, dünyada sülh və təhlükəsizliyin təmin olunmasında yaxından iştirak edərək beynəlxalq münasibətlər sisteminin fəal üzvü kimi tanınıb. Elə həmin il Qoşulmama Hərəkatına daxil olmaqla Azərbaycan öz xarici siyasətinin yeni vektorlarını müəyyənləşdirib, Latın Amerikası və Afrika ölkələri ilə səmərəli əməkdaşlıq əlaqələri qurmağa başlayıb.

Azərbaycan, eyni zamanda regionda sabitləşdirici aktor kimi fəaliyyət göstərməklə regionda və beynəlxalq səviyyədə əməkdaşlığa, təhlükəsizliyə mühüm töhfələr verir. Buna görə də ölkəmiz hazırda regional güc mərkəzi kimi sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli tərəfdaş hesab edilir. Azərbaycan konstruktiv, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan, regional və qlobal miqyasda sabitliyə xidmət edən siyasi xətt yürüdür. Belə olan halda, Azərbaycanla qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan tərəfdaşlıq münasibətləri beynəlxalq münasibətlər sisteminin aktorları olan milli dövlətlər üçün strateji əhəmiyyət daşıyır. Təsadüfi deyil ki, bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı adlandırırlar. Aparıcı dövlətlər ölkəmizin Cənubi Qafqaz və Xəzər dənizi regionunda əvəzolunmaz tərəfdaş kimi böyük dəyərə malik olduğunu bəyan edirlər.

*Ardı 2-ci səh.*



# Gədəbəydə keçirilən Milli Yaylaq Festivalında unudulmaz anlar yaşandı

Füsunkar gözəlliyi, əsrarəngiz təbiəti, bir çox dünya əhəmiyyətli tarixi abidələri ilə turistləri özünə cəlb edən Gədəbəy həm də milli-mənəvi dəyərlərimizə hörmətlə yanaşan və tariximizi özündə yaşadan bölgələrimizdəndir. İyulun 26-dan 28-dək burada keçirilən Milli Yaylaq Festivalı da bunu bir daha sübut etdi.

Həmin günlər Gədəbəyin Düzyurd-Miskinli yaylağında özgə büsat var idi. Rayon sakinləri indiyədək belə bir izdiham yaşamamışdılar. Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA), "Cavadxan" Tarix və Mədəniyyət Fondu, Gədəbəy Rayon İcra Hakimiyyətinin təşkilatçılığı, Mədəniyyət və Kənd Təsərrüfatı nazirlikləri, Dövlət Turizm Agentliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Azərbaycan Atçılıq Federasiyası və Dünya Etnoidman Konfederasiyasının rəsmi dəstəyi ilə keçirilən Milli Yaylaq Festivalında Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Mustafayev demişdir ki, festivalın keçirilməsində əsas məqsəd Azərbaycan xalqının zəngin və çoxəsrlik milli-mənəvi dəyərlərini, min illərlə formalaşmış yaylaq və elat mədəniyyətini, tarixi abidələrini nümayiş etdirmək, bölgənin turizm potensialını üzə çıxarmaq idi.

Kənd Təsərrüfatı naziri İnam Kərimov festivalın xalqımızın milli-mənəvi dəyərlərinin təbliğindəki əhəmiyyətindən danışaraq ilk dəfə keçirilən Milli Yaylaq Festivalında çoxsaylı qonaqların iştirakının böyük önəm daşıdığını diqqətə çatdırmışdır. Nazir Azərbaycanın multikultural dəyərlərə sadiqliyini vurğulayaraq ölkəmizdə azsaylı xalqların mehribanlıq, dostluq şəraitində yaşadıqlarını qeyd etmiş və demişdir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızda sabitlik və əmin-amanlıq hökm sürür. Elə Milli Yaylaq Festivalına 16 xarici ölkədən qonaqların qatılması da buna sübutdur. Tədbirin keçirilməsi dövlətimizin öz tarixinə, adət-ənənələrinə bağlılığının təcəssümüdür.

Festivalda Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) Bakı nümayəndəliyinin koordinatoru Teoman Tiryaki də iştirak etmişdir.

*Ardı 3-cü səh.*

## Mərakeşin Kralı Əlahəzrət VI Məhəmmədə

Əlahəzrət!

Əziz Qardaşım!

Mərakeş Krallığının milli bayramı - Taxt-Tac Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Mərakeş arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın iradəsinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Mərakeş xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 iyul 2019-cu il*

## Salyan rayonunun Abadkənd-Kolanı-Xələc-Yenikənd avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. On bir min nəfər əhalinin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirən Abadkənd-Kolanı-Xələc-Yenikənd avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 7,8 milyon (yeddi milyon səkkiz yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyul 2019-cu il*

## Gənc zabitlərin xidmətə qəbulu ilə bağlı hərbi hissədə tədbir keçirilib



Azərbaycan Ordusunun hərbi hissələrinin birində ali hərbi məktəbi yeni bitirmiş gənc zabitlərin xidmətə qəbulu ilə bağlı təntənəli mərasim keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbir hərbi hissənin sıra meydanında təntənəli düzülüşlə başlayıb. Sonra dövlət bayrağı meydana gətirilib, ümummilli lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Dövlət himni ifa edilib.

Gənc zabitlərə hərbi hissənin tarixi, keçdiyi döyüş yolu, hazırda burada yaradılan xidməti və sosial-məişət şəraiti barədə məlumat verilib.

Leytenantlar əsgər yataqxanaları, anbarlar, avtopark və döyüş texnikası üçün saxlanclar, bölmələrin istifadəsində olan döyüş texnikaları və silahlarla tanış olublar.

## XİN: "Yalnız Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılması bölgədə əmin-amanlığı təmin edəcək"

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat katibi Ermənistan XİN-in cəbhə xəttində gərginliyin artmasına dair verdiyi açıqlama ilə bağlı KİV-in sualını cavablandırıb.

AZƏRTAC xəbər verir ki, mətbuat katibi deyib: "Bu gün regionda yaşanan gərginliyin, ümumiyyətlə, Ermənistan və Azərbaycan arasında "cəbhə bölgəsi"nin mövcud olmasının yeganə səbəbkarı Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini, yəni Dağlıq Qarabağ və ətraf yeddi rayonu hərbi işğal edən Ermənistandır. Bu məsələdə müxtəlif bəhanələrlə digər günahkarı axtarmaq özü-özünü aldatmaqdan başqa bir şey deyildir. Çünki beynəlxalq ictimaiyyətin, o cümlədən ATƏT-in Minsk qrupunun üç üzv ölkəsinin daimi üzvü olduğu BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələr və digər təşkilatların qərarları göz qabağındadır.

Nə qədər ki, Ermənistan Respublikasının silahlı qüvvələri Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış torpaqlarında mövcudluğunu saxlayır, əfsuslar olsun ki, bu kimi insidentlərin başvermə ehtimalı yüksəkdir. Bu kimi halların qarşısının alınmasının yeganə yolu Ermənistanın işğalçı qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılmasının təmin edilməsidir.

Ermənistan XİN-i bir müddət öncə "bir əl ilə danışığa aparıb, digər əl ilə atəş açmağın" düzgün olmadığını iddia etdiyi halda, bu bəyanatdan sonra Azərbaycanın Qazax rayonu istiqamətində sərhəd məntəqəsinin mövqelərini atəşə tutaraq Azərbaycan Dövlət Sərhəd Xidmətinin əsgərini yaralamışdı. Görünür bir əli ilə Azərbaycan ərazilərini hərbi işğal altında saxlayan Ermənistan digər əli ilə danışıqlar aparmamaq üçün də bəhanələr axtarışındadır. Xatırlatmaq istərdim ki, Vaşinqton görüşündən sonra Xarici İşlər naziri Elmar Məmmədyarov münaqişənin həlli üzrə aparılan danışıqlar prosesi çərçivəsində bundan öncə də əsas sənədlərin müzakirə olunduğu zaman cəbhə bölgəsində heç də tam sakitliyin hökm sürmədiyini, lakin buna rəğmən danışıqların davam etdirildiyini bəyan etmişdi.

Azərbaycan tərəfi torpaqlarının işğal olunması faktı ilə heç zaman barışmayacaq və bunu Ermənistan tərəfinin çoxdan anlaması gərəkdir. Yalnız Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılması və bu ərazilərdən didərgin salınmış azərbaycanlıların öz evlərinə geri qayıtması bölgədə gərginliyin aradan qaldırılmasını, dayanıqlı sülh və əmin-amanlığı, rifahın bərpa olunmasını təmin edəcək".

# Baş Nazir Novruz Məmmədov Fransanın "Şərəf Legionu" ordeni ilə təltif edilib





Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov Fransa Respublikası Prezidentinin Fərmanı ilə "Şərəf Legionu" ordeninin zabit dərəcəsi ilə təltif edilib.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş Nazirə ordeni Fransanın Bakıda səfərdə olan İqtisadiyyat və Maliyyə naziri Brüno Lö Mer hökumət adından təqdim edib. Fransız dilinin, ədəbiyyatının peşəkar tədqiqatçısı Novruz Məmmədov bu ali mükafata Azərbaycan-Fransa əməkdaşlığına verdiyi töhfəyə görə layiq görülüb.

Bu xoş xəbəri çatdırmaqdan məmnun olduğunu bildirən Fransanın İqtisadiyyat və Maliyyə naziri Brüno Lö Mer, ölkəsinin Baş Naziri Novruz Məmmədova xüsusi hörmət və ehtiramı olduğunu vurğulayıb.

Baş Nazir Novruz Məmmədov isə öz növbəsində bu ali mükafata layiq görüldüyünə görə Fransa dövlətinə və fransız xalqına minnətdarlığını bildirib.

"Şərəf Legionu" ordeni 1802-ci il mayın 19-da Napoleon Bonapart tərəfindən təsis edilib. Fransanın ən yüksək dövlət mükafatı olan "Şərəf Legionu" ordeninin 5 dərəcəsi var. Fransa Respublikası və onun xalqı qarşısında xüsusi xidmətləri olan şəxslərə verilən "Şərəf Legionu" ordeninin zabit dərəcəsinə indiyədək dünyanın bir çox görkəmli insanları layiq görülüb.

# Müstəqil siyasət, etibarlı tərəfdaş

*Əvvəli 1-ci səh.*

Cənubi Qafqaz regionunun lider dövləti olan, müasir dünyada etibarlı tərəfdaş kimi tanınan Azərbaycan həm də beynəlxalq dialoq və əməkdaşlıq məkanıdır. Regionun siyasi, iqtisadi və humanitar mərkəzi kimi çıxış edən respublikamız sivilizasiyalararası dialoqun inkişafına əhəmiyyətli töhfələr verməklə yanaşı, mühüm siyasi, iqtisadi, mədəni və humanitar xarakterli beynəlxalq tədbirlərə uğurla evsahibliyi edir.

Azərbaycanın xarici siyasəti müstəqillik prinsipinə, milli maraqlara əsaslanır. Prezident İlham Əliyev ölkəmizin mövqeyini ən mötəbər beynəlxalq tribunalardan inamla, qətiyyətlə ifadə edir, güclü, qüdrətli Azərbaycan reallıqlarını dünya ictimaiyyətinə çatdırır.

Azərbaycan Prezidenti dünyanın ən mötəbər toplantılarına dəvət edilir. Misal olaraq Davos İqtisadi Forumunu göstərmək yetərlidir. Bu, yeganə forumdur ki, həm dünya liderlərini, həm də iş adamlarını, vətəndaş cəmiyyəti nümayəndələrini bir araya toplamaq imkanına malikdir. Bu baxımdan forum müxtəlif ölkələrdən investisiyaların cəlb edilməsi üçün və ölkənin özünün potensialının təqdim edilməsi baxımından olduqca vacib platformadır.

Cənab İlham Əliyev Davos İqtisadi Forumunun arzuolunan prezidentlərindən biridir. Dövlət başçısı ən vacib müzakirələrdə hər zaman çıxış edir. Onun dünyada gedən siyasi və iqtisadi proseslərə münasibəti ciddi marağa səbəb olur. Azərbaycan bu mötəbər forumda yaxından iştirak edərək təcrübə, imkanlar mübadiləsini ortaya qoymaqla dünyadakı mövcud problemlərin aradan qaldırılmasına töhfəsini verir. Azərbaycan hər il bu forumda dövlət başçısı səviyyəsində təmsil olunur. Ölkəmiz forumda vacib tərəfdaş kimi tanınır. Dövriyyəsi milyardlarla dollar olan böyük şirkətlərin rəhbərləri Azərbaycana maraq göstərir, iqtisadi cəhətdən inkişaf edən dövlətlərin liderləri Azərbaycanın dövlət başçısı ilə səmimi görüşür, mühüm layihələr müzakirə edilir. Davos Forumunda Azərbaycanın hər il dövlət başçısı səviyyəsində təmsil olunması ölkəmizin dünya birliyinə inteqrasiyasını daha da möhkəmləndirir, iqtisadi əlaqələrimizi davamlı və etibarlı edir.

Digər tərəfdən, Azərbaycan beynəlxalq təşkilatlarla - ATƏT, NATO, BMT, Avropa İttifaqı, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı ilə də fəal əməkdaşlıq edir, üzərinə düşən öhdəlikləri yerinə yetirməklə qurumların fəal üzvü olduğunu bir daha təsdiqləyir.

Azərbaycan Avropa İttifaqına üzv olan ölkələrin əksəriyyəti ilə strateji tərəfdaşlıq haqqında sazişlər imzalayıb. Bu da onu təsdiq edir ki, Azərbaycan təkcə enerji sahəsində deyil, ümumiyyətlə, təhlükəsizlik aspektində Avropa üçün çox vacib tərəfdaşa çevrilib.

Onu da xatırlatmaq yerinə düşər ki, yerləşdiyi coğrafi ərazi Azərbaycanı Şərqlə Qərbi, Şimalla Cənubu birbirinə bağlayan körpüyə çevirib. Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşan layihələr isə Azərbaycanı həm də beynəlxalq tranzit məkanına çevirib. Bu gün Şimaldan Cənuba, Şərqdən Qərbə - ən qısa yollar Azərbaycandan keçir. İlham Əliyevin regional və qlobal miqyaslı təşəbbüsləri ölkəmizin tranzit imkanlarının ikiqatına əsaslı töhfə verir. "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizlərinin fəal iştirakçısı olan Azərbaycan həm üzərinə düşən bütün işləri vaxtında reallaşdırır, həm də prosesə öz müsbət töhfəsini də əsirgəmir.

Azərbaycan Prezidentinin təşəbbüsü və prinsipial mövqeyi sayəsində tikilən və əhəmiyyətinə görə "Dəmir İpək yolu" adlandırılan Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi Asiya və Avropa dəmir yollarının inteqrasiyasına öz töhfəsini verməkdədir. Bu gün Çindən Avropaya yüklərin 34 günə deyil, 12-15 gün ərzində çatdırılması bu dəmir yolunun bütün tərəflərə nə qədər iqtisadi dvidentlər qazandırdığını bir daha təsdiqləyir.

Dünya siyasətini istiqamətləndirən böyük dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığı genişləndirmək, respublikamızda həyata keçirilən mütərəqqi iqtisadi, siyasi, hüquqi islahatlar barədə dolğun təsəvvür yaratmaq, xaricdə güclü diaspor və lobbi formalaşdırmaq dövlətimizin xarici siyasətinin prioritet məqsədləri sırasında xüsusi vurğulana bilər. Azərbaycanın nəinki regionda, ümumən dünya siyasətində əsas söz sahibi olan bütün ölkələrlə əlaqələrini son illərdə daha da inkişaf etdirməsi, sülh, sabitlik və iqtisadi əməkdaşlıq təşəbbüslərini fəal şəkildə dəstəkləməsi artıq bir reallıqdır.

Bu gün Azərbaycana baxış olduqca müsbət və nikbindir. Çünki dünya ölkələri Azərbaycanın timsalında etibarlı tərəfdaş, multikultural dəyərlərə və ənənələrə sadiq, tolerantlıq nümunəsi olan bir ölkə görür və onun regionda barışdırıcı, sabitləşdirici rolunu, beynəlxalq müstəvidə isə yerini olduqca yüksək qiymətləndirirlər.

Bütün bunlar, əlbəttə ki, beynəlxalq birliyin Prezident İlham Əliyevin həyata keçirdiyi tam müstəqil siyasətə verdiyi dəyərdir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## XV Avropa Gənclər Olimpiya Festivalında uğur qazanan idmançılarımızla Milli Olimpiya Komitəsində görüş olub






XV Avropa Gənclər Olimpiya Festivalında uğur qazanan Azərbaycan idmançıları və onların ailə üzvləri ilə iyulun 29-da Milli Olimpiya Komitəsində (MOK) görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, "Zəfər günləri" layihəsi çərçivəsində təşkil olunan tədbirdə Gənclər və İdman naziri Azad Rəhimov, Təhsil naziri Ceyhun Bayramov, MOK-un vitse-prezidentləri Çingiz Hüseynzadə, Xəzər İsayev, qurumun baş katibi Ağacan Abiyev, baş katibin müavini Azər Əliyev və idman ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Əvvəlcə idmançılarımızın mötəbər turnirdəki uğurlu çıxışlarını əks etdirən videoçarx nümayiş olunub.

MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə tədbirdə çıxış edərək bildirib ki, Azərbaycan XV Avropa Gənclər Olimpiya Festivalında da uğurla evsahibliyi etdi. Azərbaycanın yüksək qonaqpərvərliyi və təşkilatçılıq bacarığı ilə Avropanı növbəti dəfə heyran etdiyini vurğulayan vitse-prezident idmançılarımızı festivalda qazandıqları parlaq nailiyyətlər münasibətilə təbrik edərək deyib: "Bu gün "Zəfər günləri" layihəsi çərçivəsində idmançılarımızın növbəti qələbəsini qeyd edirik. Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı ilə ölkəmiz ən mötəbər idman tədbirlərinə yüksək səviyyədə evsahibliyi edir.




Azərbaycanda daha əvvəl I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları uğurla təşkil olunub".

Festivalın ölkəmizdə yüksək səviyyədə keçirildiyini vurğulayan Gənclər və İdman naziri Azad Rəhimov bu mötəbər idman yarışı çərçivəsində üç proqramın həyata keçirildiyini qeyd edib: "Festivalda qazanılan nailiyyətlər Azərbaycanın idman ölkəsi olduğunu bir daha bütün dünyaya sübut edir. XV dəfə təşkil edilən festivalda Azərbaycan komandası indiyədək ən yüksək nəticəsini əldə edərək dördüncü yeri tutdu. Bu nəticələr göstərdi ki, gənc idmançılar arasında da gələcəyin ulduzları yetişib. Çalışmalıyıq ki, onlar gələcəkdə daha yüksək nailiyyətlər əldə etsinlər".

Təhsil naziri Ceyhun Bayramov çıxışında Azərbaycanın daha bir mötəbər idman tədbirini yüksək səviyyədə təşkil etməsini məmnunluqla vurğulayaraq diqqətə çatdırıb ki, komandamızın 48 ölkə arasında dördüncü yeri tutması ölkəmizdə idmana göstərilən yüksək diqqət və qayğının göstəricisidir. C.Bayramov festivalın təşkilinə göstərdiyi dəstəyə görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident xanım Mehriban Əliyevaya minnətdarlığını bildirib.

Sonra Avropa Gənclər Olimpiya Festivalının medalçılarına mükafatlar təqdim edilib.

Tədbir incəsənət ustalarının çıxışı ilə davam edib.

Qeyd edək ki, Avropa Gənclər Olimpiya Festivalında Azərbaycan komandası 23 medal - 10 qızıl, 7 gümüş və 6 bürünc qazanaraq komanda hesabında dördüncü pillədə qərarlaşıb. Medallardan 16-sını güləşçilərimiz qazanıblar. Pəhləvanlarımız 8 qızıl, 5 gümüş və 3 bürünc medala sahib olublar. Medalların sayına görə komandamızda ikinci yerdə cüdoçular qərarlaşıblar. Cüdoçular ölkəmizin aktivinə 2 qızıl, 1 gümüş və 3 bürünc medal yazdırıblar. Komandamız idman gimnastikası yarışında isə 1 gümüş medala sahib olub.

## Latviyada "Yerli özünüidarəetmədə beynəlxalq əməkdaşlığın rolu" mövzusunda beynəlxalq konfrans keçirilib

Latviyanın Qulbene vilayəti son illərdə 11 ölkənin yerli özünüidarəetmə orqanları ilə uğurlu əməkdaşlıq qurub. Bu ölkələrdən biri də Azərbaycandır.

AZƏRTAC xəbər verir ki, Qulbenedə keçirilmiş "Yerli özünüidarəetmədə beynəlxalq əməkdaşlığın rolu" mövzusunda beynəlxalq konfransda Qulbene rəhbərliyi bütün tərəfdaşları ilə bir araya gələrək beynəlxalq əməkdaşlığın müsbət tərəflərini müzakirə edib.

Beynəlxalq konfransda Azərbaycanı Milli Məclisin Regional məsələlər komitəsinin üzvü, Azərbaycan-Latviya parlamentlərarası işçi qrupunun rəhbəri Kamran Bayramov, Xızı Rayon İcra Hakimiyyətinin nümayəndə heyəti təmsil edib. Tədbir ənənəvi "Şəhər günü" bayramı çərçivəsində baş tutub.

Açılış nitqində Qulbene vilayətinin meri Normunds Audziş beynəlxalq konfransda müzakirə olunan məsələnin inkişafındakı zəruriliyindən, o cümlədən qarşılıqlı əməkdaşlıq edən digər ölkələrdən olan həmkarları ilə həyata keçirdikləri layihələrdən, 2014-cü ilin sentyabr ayından Xızı Rayon İcra Hakimiyyəti ilə birgə reallaşdırdıqları müsbət iş təcrübəsindən danışıb.

Kamran Bayramov çıxışında belə bir konfransın zəruriliyini qeyd edərək bu təşəbbüsün ölkələrimiz və şəhərlərimiz arasında əməkdaşlığın gücləndirilməsinə növbəti töhfə olduğunu qeyd edib. O, Azərbaycan və Latviya, eləcə də 2011-2019-cu illərdə iki ölkənin bir sıra yerli orqanları arasında qarşılıqlı əməkdaşlıq haqqında müqavilələrin imzalanmasını, təcrübə mübadiləsi və müzakirələr aparılmasını qeyd edib. Həmin əməkdaşlığın məntiqi nəticəsi olaraq 2017-ci il iyul ayında Azərbaycan Respublikasının Prezidenti ilə keçirilmiş ikitərəfli görüş zamanı yerli hakimiyyətlər və bələdiyyələrin əməkdaşlığı sahəsində görülən işlərin xüsusilə vurğulanmasını konfrans iştirakçılarının diqqətinə çatdırıb.

"Yerli orqanlararası əməkdaşlığın möhkəmləndirilməsində parlamentlərin rolu" mövzusunda çıxışında millət vəkili 2016-2019-cu illərdə Milli Məclisin Regional məsələlər komitəsinin üzvləri tərəfindən Azərbaycana gələn bələdiyyə təmsilçiləri ilə aparılan görüşlərdən və qarşılıqlı səfərlərdən danışaraq qanunvericilikdə beynəlxalq əməkdaşlığın genişləndirilməsi ilə bağlı edilən son dəyişikliklər barədə də məlumat verib.

Həmçinin konfrans iştirakçılarının diqqətinə çatdırılıb ki, torpaqlarımızın 20 faizindən çox hissəsinin erməni qəsbkarları tərəfindən işğal edilməsi nəticəsində bir milyondan artıq soydaşımız öz doğma yurd-yuvalarından didərgin salınıb və həmin ərazilərdə vətəndaşlarımız yerli özünüidarəetmədə seçki və iştirak hüquqlarından məhrum olublar.

Sonra konfransın panel müzakirələri aparılıb. Yerli orqanların beynəlxalq əməkdaşlığının sosial-iqtisadi, mədəni, turizm və digər istiqamətlərdə əməkdaşlığa müsbət təsiri barədə konfrans iştirakçılarının suallarına aydınlıq gətirilib.

"Şəhər günü" çərçivəsində ölkəmizi təmsil edən nümayəndə heyəti digər bayram tədbirlərində də iştirak edib.

## Azərbaycanda vəkilliyin 100 yaşı tamam olur

# Müstəqil dövlətin güclü və nüfuzlu hüquqi müdafiə təsisatı

> "Güclü və nüfuzlu vəkillik təsisatının böyük əhəmiyyəti vardır"
>
> **İlham ƏLİYEV**

Respublikamızda insan hüquqlarının peşəkar müdafiəsi işinin təşkili baxımından 2019-cu il Azərbaycan vəkilliyi üçün xüsusilə əlamətdardır. Əminliklə demək olar ki, bu il Azərbaycan vəkilliyinin 100 illiyi, müstəqil vəkillik institutunun yaradılmasının 20 illiyi və Azərbaycan Respublikası Vəkillər Kollegiyasının təsis olunmasının 15 illiyi kimi tarixə düşəcəkdir.

Bu gün Ana qanunumuz olan Konstitusiyada 24 yerdə "insan hüquqları", 63 yerdə "azaqlıqlar" və sair əlaqəli ifadələrə rast gəlirik. Bu, dövlət və vətəndaş cəmiyyəti quruculuğu barədə ölkəmizin hansı istiqamət tutması, hansı bəşəri dəyərlərə söykənməsi, onun niyyəti barədə xəbər verir. Eyni zamanda bu hüquqların peşəkar qorunması işində mərkəzi yerlərdən birini tutan Azərbaycan vəkilliyinin özünə xas tarixi yolu olmuşdur.

Dünyaca məşhur yazıçı Harper Linin "Bülbülü öldürmək" romanında əsərin qəhrəmanın dilindən peşəcə vəkil olan atası Attikus Finç barəsində belə bir ifadə işlədilir: "Heç vaxt əlinə silah almamış, hətta müharibədə olmamış atam mənim gözümdə bəlkə də dünyada yaşamış ən cəsur adam idi". Yəqin, vəkil peşəsinin xarakterini bədii formada bundan daha gözəl ifadə etmək olmazdı. Dünya tarixinə nəzər yetirdikdə vəkillərin, ümumən hüquqşünasların müxtəlif dövlətlərin qurulmasında rolunu bariz şəkildə görə bilərik. Belə fədakarlıq yanlız cəsarətli şəxslərə xasdır və vəkillər bu tarixi siyahıda öncül yerlərdən birini tutmaqda haqlıdırlar. Buna bir sıra xarici ölkələrin, həm də Azərbaycanın şanlı tarixi uğurlu misal ola bilər.

Belə ki, ölkəmizdə institusional səviyyədə vəkillik 30 iyul 1919-cu il tarixdə Azərbaycan Xalq Cümhuriyyətinin Ədliyyə Nazirliyinin qərarı ilə Azərbaycan Məhkəmə Palatası Dairəsi üzrə Andlı Müvəkkillər Şurasının təşkili işinə başlanılmışdır.

12 noyabr 1919-cu il tarixdə Azərbaycan Xalq Cümhuriyyətinin Ədliyyə Nazirliyinin müraciəti əsasında vəkillərin dəqiqləşdirilmiş siyahısının təqdim edilməsi xahiş edilmişdir. Qeyd olunmalıdır ki, həmin dövrdə fəaliyyət göstərən 100-dən artıq vəkildən yalnız 8-i azərbaycanlı olub. Onlardan İsmayıl xan Ziyadxanov, Axundzadə Rəşid bəy, Əlimərdan Topçubaşov, Fətəlixan Xoyski, Xəlilbəy Xasməmmədovun adları xüsusilə qeyd olunmalıdır. Adları sadalanan ictimai-siyasi xadimlərin ovaxtkı Azərbaycan dövlətinin qurulmasındakı sonrakı xidmətləri hər kəsə gözəl məlumdur.

Lakin Azərbaycan Xalq Cümhuriyyətinin 1920-ci ildə 11-ci qızıl ordu tərəfindən ilhaq olunması nəticəsində Azərbaycan İnqilab Komitəsinin 13 may 1920-ci il tarixli dekreti ilə Azərbaycan məhkəmə palatası, ümumən prokurorluq, məhkəmə və istintaq orqanları, habelə vəkillik sistemi ləğv edildi. Məlumat üçün qeyd olunmalıdır ki, həmin dövrdə müdafiəçilər işlərə yalnız məhkəmə baxışı mərhələsində buraxılırdılar ki, bu, o dövrdə insanların hüquqi yardıma çatımlılığı baxımından qəbahətli təcrübə kimi acı da olsa, bunu tariximiz kimi qəbul etməliyik.

Sovet hakimiyyəti illərində Moskvadakı ittifaq rəhbərliyinin Azərbaycana münasibətdə iqtisadi və digər sahələrdə ayrı-seçkiliyə meyilli olmasına baxmayaraq, xalqımızın qədirbilən övladları ölkəmizin tərəqqisi naminə öz sözlərini deyə bildi. Bu mənada, xalqımızın dahi lideri, Ulu Öndər Heydər Əliyevin xidmətləri xüsusilə vurğulanmalıdır.

1970-ci ildə Azərbaycan SSR Ədliyyə Nazirliyi yaradılmış və maraqlıdır ki, nazirliyin Əsasnaməsinin 6-cı maddəsində nazirliyin vəkillər sisteminə ümumi rəhbərlik etməsi qeyd olunmuşdur. Həmin ilin dekrabın 25-də isə SSRİ Ədliyyə Nazirliyinin "Vəkillər Kollegiyasının fəaliyyətinə rəhbərliyi yaxşılaşdırmaq haqqında" əmrdə aşağıdakı maraqlı ifadələr qeyd olunmuşdur: "Vəkillər sistemi təsisatının nüfuzunu daha da yüksəltmək, vəkillərin qanunla onlara verilən hüquqlardan daha dolğun istifadəsini təmin etmək, hüquq məsləhətxanalarının və vəkillərin normal işləmələrindən ötrü şərait yaradılmasına kömək etmək məqsədilə ədliyyə nazirlikləri qarşısında yeni vəzifələr qoyulur.

Bununla bərabər, 1978-ci il Kontistusiyasını vəkilliyin institusionallaşması və təşkilatlanması baxımından mühüm sənəd hesab edə bilərik. Belə ki, həmin Konstitusiyanın 173-cü maddəsində aşağıdakılar təsbit olunmuşdur: "Vətəndaşlara və təşkilatlara hüquqi yardım üçün Vəkillər Kollegiyası fəaliyyət göstərir. Qanunvericiliklə nəzərdə tutulan hallarda vətəndaşlara hüquqi yardım pulsuz göstərilir".

Lakin söhbət əgər müstəqil vəkillikdən gedirsə, o zaman Azərbaycanda vəkillik institutunun müstəqil təsisat kimi formalaşması və fəaliyyətinin bilavasitə Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olması qeyd edilməlidir Belə ki, Ümummilli Liderin rəhbərliyi ilə 1995-ci ildə Azərbaycan Respublikasının yeni konstitusiya layihəsinin hazırlanması üzrə komissiya, 1996-cı ildə isə Hüquqi İslahat Komissiyası yaradılmışdır ki, məhz bu dövrdən sonra müstəqil Azərbaycan vəkilliyinin əsasları formalaşdırıldı, Vəkillər Kollegiyası müstəqil təsisat olaraq məhkəmə-hüquq sistemində öz layiqli yerini tutdu. Bu zamana qədər isə vəkillik fəaliyyəti Ədliyyə Nazirliyinin müvafiq şöbəsi tərəfindən təşkil edilir və nəzarətdə saxlanılırdı. Bütün bu fəaliyyətin məntiqi davamı olaraq Ümummilli Lider Heydər Əliyev tərəfindən 28 dekabr 1999-cu ildə "Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanun imzalanmış, Azərbaycan tarixində ilk dəfə vəkillik tam müstəqil, hakimiyyətin heç bir qolundan asılı olmayan bir təsisata dönmüş və həmin dövrdə qəbul olunmuş yeni prosessual qanunvericiliyə əsasən, vəkillik çəkişmə prinsipi çərçivəsində prosesin bərabərhüquqlu tərəfinə çevrilmişdir. Müstəqilliyin təməlini qoyan qanunun qəbulundan sonra isə ilk dəfə olaraq 3 noyabr 2004-cü ildə Azərbaycan Respublikasının Vəkillər Kollegiyası təsis olundu.

Azərbaycan Respublikasının Konstitusiyasında da təsbit edildiyi kimi, vətəndaşlara yüksəkkeyfiyyətli və peşəkar hüquqi yardım göstərilməsi dövlətin öhdəliyindədir və bu öhdəlik məhz Azərbaycan Respublikasının Vəkillər Kollegiyası vasitəsilə həyata keçirilir. Bu səbəbdən Azərbaycanda vəkillik institutunun inkişafı və nüfuzunun artırılması istiqamətində bir sıra normativ-hüquqi aktlar, çoxsaylı sərəncamlar və s. sənədlər qəbul olunmuşdur ki, bu da Ulu Öndərin layiqli davamçısı möhtərəm Prezident İlham Əliyevin adı ilə birbaşa bağlıdır.

Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Prezidentinin 7 noyabr 2017-ci il tarixli sərəncamları ilə Azərbaycan Respublikasının Mülki Prosessual, İnzibati Prosessual məcəllələri və "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanununa dəyişikliklər təsdiq edilmişdir. Həmin sərəncamlar ilə vəkillik institutunun hüquq sistemində yerinin gücləndirilməsi, peşəkar və yüksəkkeyfiyyətli hüquqi yardımın məhz vəkillərə həvalə olunması qət olunmuşdur. Hətta bu çərçivədə, ölkədə vəkillərin sayının artırılması məsələsi Vəkillər Kollegiyasına tövsiyə olunmuşdur.

Həmçinin 22 fevral 2018-ci il tarixdə qəbul olunmuş "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında"



Azərbaycan Respublikası Prezidentinin Sərəncamı qeyd olunan tədbirlər müstəvisində tarixi önəmə malikdir. Belə ki, sərəncamın preambulasında qeyd olunur ki, vətəndaşların yüksəkkeyfiyyətli hüquqi yardım almaq hüququnun həyata keçirilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi və ədalət mühakiməsinin səmərəli fəaliyyəti üçün güclü və nüfuzlu vəkillik təsisatının böyük əhəmiyyəti vardır. Bu sərəncamda Azərbaycan Respublikası Vəkillər Kollegiyasının müvafiq binalar ilə təmin olunması, dövlət hesabına göstərilən hüquqi yardıma görə müəyyən edilmiş məbləğin 3 dəfə artırılmasını və s. məsələlər öz əksini tapmışdır. Adıçəkilən sərəncamda qeyd olunan işlər bu gün tam gücü ilə icra olunmaqdadır. Sərəncamda həm də Vəkillər Kollegiyasının və vəkillərin fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini və hüquqi xidmətlərin elektron formada göstərilməsi təcrübəsini genişləndirmək üçün vəkilliyin vahid elektron informasiya sisteminin təşkili və bu sistemin "Elektron məhkəmə" informasiya sisteminə inteqrasiyası istiqamətində tədbirlər görülməsi tövsiyə olunmuşdur. Vəkillər Kollegiyasının rəsmi internet səhifəsində yer alan elektron vəkil kabinetlərində "Elektron məhkəmə" portalına çıxış da təmin edilmişdir.

Bundan əlavə, ölkəmizdə vəkilliyə verilən əhəmiyyətdən danışmışkən, bir məsələyə də toxunmadan keçmək olmaz. Bu gün vəkillər məhkəmə hakimiyyətinin özünü idarə edilməsi, habelə məhkəmə hakimiyyətinin formalaşdırılması işində, yeni Məhkəmə-Hüquq Şurasının və Hakimlərin Seçki Komitəsinin işində də fəal iştirak edir. Həmçinin bu gün Vəkillərin İxtisas Komissiyasının işində həm məhkəmə hakimiyyətinin təmsilçiləri, həm də hüquqşünas alimlər iştirak edirlər.

Vəkillər Kollegiyası ədliyyə və məhkəmə orqanları ilə əməkdaşlıq şəraitində vəkilliyin inkişafı, yüksəkkeyfiyyətli hüquqi yardımı vətəndaşlara əlçatan etmək məqsədilə çoxşaxəli təşəbbüslər həyata keçirməkdədir.

Həmçinin Azərbaycan Respublikası Prezidentinin 03.04.2019-cu il tarixli "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı vəkilliyin ölkəmizdə daha da mütərəqqi quruma çevrilməsi baxımından tarixi sənəd olmaqla yanaşı, gələcək dövr üçün onun inkişaf trayektoriyasını müəyyən edən yol xəritəsidir. Sənəddə mülki işlər və iqtisadi mübahisələr üzrə məhkəmə icraatının effektivliyinin artırılması, xüsusən sahibkarlıqla bağlı məsələlərin məhkəmələrdə daha sürətli və səmərəli həllinin təmin edilməsi məqsədilə digər qurumlarla bərabər Vəkillər Kollegiyasına mülki prosessual qanunvericiliyi kompleks şəkildə birgə təhlil edib, bu sahədə qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla onun təkmilləşdirilməsi barədə təkliflər hazırlanması, vəkillərin hakimlərlə və cinayət təqibini həyata keçirən orqanların əməkdaşları ilə qeyri-prosessual münasibətlərə yol verməsinin qarşısının alınması üçün tədbirlərin gücləndirilməsi tövsiyə olunub. Habelə Nazirlər Kabinetinə tapşırılıb ki, dövlət hesabına həyata keçirilən hüquqi yardım üçün tələb olunan vəsaitin birbaşa Vəkillər Kollegiyasına ayrılması barədə işlər görülsün. Bu gün bu istiqamətdə Kollegiya tərəfindən çevik və əməli işlər görülməkdədir.

Bundan əvvəl də 2005-ci ildə dövlət başçısı "Azərbaycan Respublikası Vəkillər Kollegiyasının maddi-texniki təminatının yaxşılaşdırılması üzrə tədbirlər barədə" Sərəncam imzalamışdır. Həmin sərəncam Azərbaycan vəkilliyinin inkişafına dövlət tərəfindən verilmiş əməli dəstək kimi qiymətləndirilmişdir.

Son nəticədə görülən işlərin hamısının qayəsini şəxslərin keyfiyyətli hüquqi yardımla təmin edilməsi təşkil edir ki, bu, ölkəmizdə vətəndaşların hüquqlarının müdafiəsi istiqamətində həyata keçirilən dövlət siyasətinin tamamlayıcı seqmentlərindən biridir. Azərbaycan Respublikasının Vəkillər Kollegiyası bu sahədə aparılan mütərəqqi dövlət siyasətinin daim dəstəkləyicisi və bu siyasətin bir parçası olmaqda davam edəcəkdir.

Qeyd etmək yerinə düşər ki, dövlət başçısı tərəfindən qəbul olunmuş tarixi sənədlər nəticəsində son dövrlər Vəkillər Kollegiyası institusional səviyyədə güclənmiş, ictimaiyyət arasında və beynəlxalq səviyyədə nüfuzlu quruma çevrilmişdir. Bu nüfuzun formalaşmasına Kollegiyanın BMT, AŞ, Beynəlxalq Miqrasiya Təşkilatı, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti, Avropa Hüquqşünas Tələbələri Assosiasiyası kimi beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq münasibətlərinin qurulması, vəkillərin Böyük Britaniyada vəkilliyə qəbul üzrə müvafiq imtahanı verməklə orada vəkilliyə qəbul oluna və İngiltərə və Uels ərazisində vəkillik fəaliyyəti ilə məşğul ola bilmələri üçün Birləşmiş Krallığın Hüquq Cəmiyyəti ilə əlaqlərin yaradılması, gənc hüquqşünas tələbələr üçün təqaüd və təcrübə proqramlarının təşkili, 2017-ci ilə nisbətdə ölkədə vəkillərin sayının 83 faizədək artırılması, vəkilliyə qəbul prosesinin sadələşdirilərək daimi əsaslarla təşkil edilməsi səbəb olmuşdur. Eyni zamanda, ölkə üzrə vəkil qurumlarının sayının 39-dan 73-dək artırılması, vəkillərin fəaliyyətində elektron texnologiyalardan istifadə imkanlarının genişləndirilməsi, ölkə üzrə bir sıra ASAN xidmət mərkəzlərində (Masallı, Bərdə, Qəbələ, İmişli) aztəminatlı əhaliyə pulsuz hüquqi yardım xidmətlərinin təşkili, Kollegiyanın fəaliyyətinin ictimaiyyətə və mediaya açıqlığının təmin edilməsi, Sumqayıtda ən müsair standartlara cavab verən Regional Vəkil Bürosunun yaradılması, habelə bu yaxınlarda Şəki, Şirvan və Gəncə şəhərlərində analoji regional mərkəzlərin açılacağı və digər görülmüş işlər də mühüm rol oynamışdır.

Unudulmamalıdır ki, Azərbaycan vəkilliyində əldə olunmuş müsbət nəticələr Ulu öndər Heydər Əliyevin təməlini qoyduğu müstəqil vəkilliyin inkişafına xalqımızın layiqli lideri Prezident İlham Əliyevin qayğısının nəticəsidir. Bu baxımdan, aparılan islahatlar, şübhəsiz, tək bu gün üçün deyil, həm də gələcəyə hesablanmış addım olaraq dəyərləndirilməlidir.

Sonda əminliklə demək olar ki, 28 dekabr 1999-cu il - "Vəkillər və vəkillik fəaliyyət haqqında" qanunun imzalanması günü Ulu Öndər Heydər Əliyevin xidməti ilə vəkilliyimizin tarixinə qızıl hərflərlə həkk olunub.

*Anar BAĞIROV,*
*Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri*

# Gədəbəydə keçirilən Milli Yaylaq Festivalında unudulmaz anlar yaşandı



*Əvvəli 1-ci səh.*

O, festivalın təşkilatçıları arasında olmasından məmnun qaldığını qeyd edərək demişdir ki, tədbirə qatılan xarici ölkə nümayəndələri üç gün ərzində Azərbaycanın, o cümlədən Gədəbəyin adət-ənənələri ilə tanış olmuş, bu füsunkar diyar haqqında bilgilərini zənginləşdirmişlər.

Türkiyənin ölkəmizdəki səfiri Erkan Özoral Gədəbəydə keçirilən Milli Yaylaq Festivalının Türkiyədə düzənlənən festivallara bənzədiyini diqqətə çatdırmışdır. Ulu Öndər Heydər Əliyevin bir kəlamını xatırladaraq demişdir ki, biz bir millət, iki dövlətik. Odur ki, oxşar tədbirlərimiz də çoxdur.

Festival iştirakçıları arasında olan Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğan ölkəmizin son illərdə sürətlə inkişaf etdiyini qeyd edərək demişdir ki, Azərbaycan nəinki iqtisadiyyatda, eləcə də idmanda öz sözünü demişdir. Keçirilən beynəlxalq idman yarışlarında qazanılan nailiyyətlər buna əsas verir. Bundan başqa, Azərbaycan bir çox mötəbər yarışlara da evsahibliyi edir. Bu da onun əsl idman ölkəsi olduğuna sübutdur.

Bilal Ərdoğan onu da vurğulamışdır ki, mədəniyyətimizi itirsək, müstəqilliyimizi itirmiş olarıq. Ona görə də gənc nəsil arasında milli-mənəvi dəyərlərimizlə yanaşı, milli idman oyunlarımızın da təbliğini aparmalıyıq ki, onlar unudulmasın. Əgər mədəniyyətimizə sahib çıxmasaq, bizə üstün gəlmək istəyənlər öz bədniyyətlərinə çatarlar. Dünya Etnoidman Konfederasiyası olaraq bu mesajı, sadəcə, türk dünyasında deyil, bəşəriyyətin hər yerində verirəm. Çünki düşmənlərimiz indi də milli-mənəvi dəyərlərimizə, milli idman oyunlarımıza göz dikərək özününküləşdirmək istəyirlər. Ancaq onlar istəklərinə nail ola bilməyəcəklər.

Festivalda Gədəbəy aşıqlarının, respublikamızın tanınmış incəsənət ustalarının, Göygöl Dövlət Mahnı və Rəqs Ansamblının üzvləri rəngarəng konsert proqramı ilə çıxış etmişlər. Gəncə Dövlət Dram Teatrı aktyorlarının çıxışları da maraqla qarşılanmışdır.

Festivalda çaparlar cıdır meydanında Qarabağ atları ilə nümunəvi çıxışlar etmişlər. Meydan festivalda iştirak etmək üçün gəlmiş qonaqların təmsil etdikləri ölkələrin bayraqları ilə bəzədilmişdi. Əllərində Azərbaycanın və qardaş Türkiyənin bayraqlarını tutan süvarilər meydana çıxaraq at belində qeyri-adi oyunlar göstərmiş, yerli və xarici qonaqlar ox atıb məharətlərini nümayiş etdirmişlər.

Qeyd edək ki, Milli Yaylaq Festivalına əvvəlcədən geniş hazırlıq işləri görülmüş, Düzyurd-Miskinli yaylağında etnoqəsəbə yaradılmışdı. Etnoqəsəbənin ərazisində alaçıqlar, cıdır meydanı, yaylaq bazarı, sənətkarlıq guşəsi, "Dədə Qorqud" ocağı, kənd təsərrüfatı məhsullarının satışı üçün yerlər, pəhləvanlar üçün meydan, "Aşıq Ələsgər ocağı", yaylaq süfrəsi və digər sahələr yaradılmışdı. Festival üçün qurulmuş etnoqəsəbənin ərazisində 3 gün ərzində genişmiqyaslı el şənliyi (etnoqrafiq, mədəni, idman tədbirləri) təşkil edilmişdi. Etnoqəsəbə 3 hissədən ibarət olmuşdur. Bunlar mədəni-etnoqrafiq hissə, milli yaylaq oyunları və ekoetnoturizm idi. Mədəni-etnoqrafiq hissədə aşıqların deyişməsi, milli rəqslər, xalq mahnıları, tamaşalar, əski xalq oyunları (dirədöymə, çilingağac, əzəldöyməz, müçük, aşıq-aşıq, mollamindi) təşkil edilmiş, mətbəx nümunələri, qoçların, qurdbasarların (çoban itlərinin) və yerli atların sərgi-müsabiqəsi, müalicəvi dağ bitkilərinin satış-yarmarkası keçirilmişdir.

Bundan başqa, festival müddətində Azərbaycanda yaşayan müxtəlif etnik qrupların nümayəndələrinin mədəni proqramlarına və nümunəvi çıxışlarına yer verilmiş, milli yaylaq oyunları şərti altında qədim tarixə malik yorğa at yarışları, at belində nümunəvi çıxışlar, güləş yarışları keçirilmişdir.

"Yaylaqda bir gün" adlı hissədə şərti olaraq XVIII əsrin ənənəvi yaylağına səyahət edilmişdir. Bunlarla yanaşı, festival iştirakçıları üçün bölgənin məşhur yerlərinə - Koroğlu qalasına, Mahrasa məbədinə, Qız qalasına və digər tarixi məkanlara atla gəzintilər təşkil olunmuşdur.










Rusiyalı qonaq, Moskva Mədəni İrs İnstitutunun əməkdaşı Natalya Kruqovadan, Qazaxıstanlı, Qazax Milli İncəsənət İnstitutunun əməkdaşı Rauşan Maldıbayevadan və Türkiyənin Türk xalq oyunları məktəbinin müəllimi Fateh Oralla söhbət zamanı festival haqqında təəssüratlarını soruşduqda hər üç qonaq tədbirdən yüksək zövq aldığını, Azərbaycan, xüsusilə qədim diyar olan Gədəbəy haqqında çoxlu məlumat topladığını söylədi. Milli-mənəvi dəyərlərə bu qədər önəm verildiyi üçün Azərbaycan xalqına minnətdarlıq etdilər.

Beləcə, böyük coşqu ilə keçən Milli Yaylaq Festivalı həm gədəbəylilərin, həm də qonaqların yaddaşında silinməz izlər qoydu. Bir daha sübut olundu ki, qədim tarixə malik Azərbaycan, eləcə də onun bölgələri zəngin maddi-mədəni dəyərlərə, adət-ənənələrə malikdir və ulu babalardan bizim dövrümüzə gəlib çıxmış ənənələr böyük məhəbbətlə qorunur.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# "Bakı - 2019"
## Tarixə qovuşan anlar



Foto Ağəli MƏMMƏDOVUNDUR

# 10 qızıl, 7 gümüş, 6 bürünc

## XV Avropa Gənclər Olimpiya Festivalı gələcəyin idman ulduzlarının növbəti zəfər meydanı oldu

İyulun 27-də XV Avropa Gənclər Olimpiya Festivalına yekun vuruldu. Bir həftə davam edən yarışlarda 48 ölkəni təmsil edən 3600-dən çox idmançı qalib adı uğrunda mübarizə apardı. Azərbaycan komandası Avropanın Rusiya, Böyük Britaniya və Türkiyə istisna olmaqla, bütün ölkələrini, o cümlədən - Fransa, Almaniya, İtaliya, Ukrayna, İspaniya, Çexiya, Hollandiya, Belarus, İsveçrə, Avstriya və digərlərini qabaqlayaraq festivalda 23 medal qazanmış və ümumi komanda hesabında 4-cü olmuşdur. Medallardan 10-u qızıl, 7-i gümüş, 6-sı bürüncdür.

### Güləşdə Avropa birincisiyik

Azərbaycan komandasının üzvləri 10 idman növü üzrə keçirilmiş yarışların 3-də medallar əldə ediblər. Sözsüz ki, bütün turnirlərdə medal gözlənilən idman növləri sırasında güləş xüsusi yer tutur. Pəhləvanlarımız bu dəfə də ənənələrinə sadiq qalaraq 3 gün keçirilən yarışlarda ümumilikdə 16 medal (8 qızıl, 5 gümüş, 3 bürünc) əldə edərək tarixi qələbəyə imza atdılar. Bununla da, 13 ölkə arasında ilk pillədə yer aldılar.

Sərbəst güləşdə A qrupunda rusiyalı Eldar Asakayevlə gücünü sınayan təmsilçimiz Murad Haqverdiyev (45 kq) ilk turda qələbə qazanıb. Ardınca belaruslu Mikita Berazuna, türkiyəli Bahri Soylerə aman verməyən həmyerlimiz yarımfinala adlayıb. Finala gedən yolda polşalı Fabian Niedziedzkini mübarizədən kənarlaşdıran Murad həlledici mərhələdə Gürcüstan idmançısı Nikolozi Santeladze ilə qarşılaşıb və 11:4 hesabı ilə qələbə qazanaraq "Bakı-2019"un qalibi adını qazanıb.

Sərbəst güləşdə 51 kq çəki dərəcəsində yarışan Kənan Heybətov 1/8 finalda Ukrayna təmsilçisi İvan Terzini tam üstünlüklə məğlub edib. Daha sonra Finlandiya idmançısı Niko Hivonenə heç bir şans verməyən təmsilçimiz yarımfinala yüksəlib. Finala gedən yolda yunanıstanlı Nektarios Kristos Kuzupisi də vaxtından əvvəl məğlub edən Kənan həlledici görüşdə rusiyalı Rüstəm Dolayevlə üz-üzə gəlib. Görüşü qalib başa vuran pəhləvanımız festivalın qızıl medalına yiyələnib.

Sərbəst güləş yarışlarında Cəbrayıl Hacıyev (65 kq) təsnifat mərhələsində gürcüstanlı Davit Patsinaşvili üzərində inamlı qələbə qazanıb. Daha sonra türkiyəli Duhan Hamza Dumanı da məğlub edən Cəbrayıl adını 1/4 finala yazdırıb. Yarımfinala gedən yolda Yunanıstan təmsilçisi Konstantinos Nikopolidisi mübarizədən kənarlaşdıran pəhləvanımız bu mərhələdə İsveçrə idmançısı Umar Mavlayevə də qalib gələrək finala yüksəlib. Final qarşılaşmasında Batirbek Tşkovrebovla (Rusiya) güləşən idmançımız qalib gələrək qızıl medala layiq görülüb.

Yunan-roma güləşində isə ölkəmizin hesabına ilk qızıl medalı Fərid Sadıqlı (45 kq) yazdırıb. 1/8 finalda İtaliya idmançısı Andrea Martinonu, 1/4 finalda gürcü Davit Qvasalianı, yarımfinalda rusiyalı Maksim Qurovu məğlub edən pəhləvanımız həlledici mərhələdə türkiyəli Umut Çobanla güləşib. Rəqibini böyük üstünlüklə məğlub edən Fərid Avropa Gənclərinin XV Yay Olimpiya Festivalının qalibi olub.

Yunan-roma güləşində 48 kq çəkidə yarışan Qurban Qurbanov isə mübarizəyə 1/8 final mərhələsindən qoşulub. Polşalı Kaçper Karaskieviçlə güləşdən qalib ayrılan idmançımız daha sonra türkiyəli Emin Çakırı mübarizədən kənarlaşdıraraq yarımfinala yüksəlib. Q. Qurbanov finala gedən yolda Maksim Stupakeviçdən (Belarus) üstün olub. Həlledici görüşdə güləşçimizin rəqibi gürcüstanlı Xviça Abuladze olub. Rəqibinə aman verməyən Qurban qalib gələrək ölkəmizin hesabına daha bir qızıl medal yazdırıb.

60 kq çəkidə xalça üzərinə çıxan yunan-roma güləşçimiz Həsrət Cəfərov 1/8 finalda litvalı Donatas Rindeikislə görüşdən qalib ayrılıb. 1/4 finalda Mikita Muraşkanı (Belarus) 13:5 hesabı ilə məğlub edən Həsrət yarımfinalda Andrea Settiyə (İtaliya) də qalib gələrək finala yüksəlib. Həlledici görüşdə rusiyalı Maqomed Qiqiyevlə qarşılaşmadan qalib ayrılan Həsrət "Bakı-2019"un qızıl medalına yiyələnib.

Yunan-roma güləşində 51 kq çəkidə yarışan Elmir Əliyev 1/8 finalda Norveç təmsilçisi Kristofer Anderseni sıradan çıxarıb. 1/4 finalda o, Rumıniya idmançısı Denis-Florin Mihaydan güclü olub. Yarımfinalda gürcüstanlı Nukri Benidzeyə "tuşe" ilə qalib gələn həmyerlimiz adını finala yazdırıb. O, çempionluq üçün Sanya Yakovlevlə (Ukrayna) münasibətinə aydınlıq gətirib və 10:0 hesabı ilə inamlı qələbə qazanaraq qızıl medala sahib olub.

Yunan-roma güləşindəki digər təmsilçimiz Xasay Həsənli (65 kq) ilk mərhələdə Yunanıstan idmançısı Fotios Bukisi məğlub etməkdə çətinlik çəkməyib. Müvafiq olaraq finlandiyalı Kasperi Kauhanenə və İsveçrədən olan güləşçi David Loherə də aman verməyən Xasay adını yarımfinala yazdırıb. Həlledici mərhələyə çıxmaq üçün Ukrayna güləşçisi Marian Qolubovski ilə gərgin mübarizə şəraitində keçən görüşdən də qalib ayrılan təmsilçimiz qızıl medal uğrunda Deni Nakayevlə (Almaniya) qarşılaşıb. Görüşü qalib başa vuran təmsilçimiz "Bakı-2019"un qızıl medalını qazanıb.

Sərbəst güləşçimiz Əbülfəz Nəsirov (55 kq) da "Bakı-2019"u medalla başa vurub. Təmsilçimiz finala gedən yolda britaniyalı Harvey Ridinqsi, gürcüstanlı Bejani Barsonidzeni, rusiyalı Maqomedemi Eltemirovu məğlubiyyətə uğradıb. Həlledici mərhələdə italiyalı Simone Vinçenzo Pirodduya uduzan pəhlavanımız gümüş medalla kifayətlənməli olub.

60 kq çəki dərəcəsində yarışan Sabir Cəfərov 1/8 finalda macarıstanlı Marsel Deli ilə güləşib. Görüşü vaxtından əvvəl qalib başa vuran idmançımız dörddəbir finalda belaruslu Anatoli Xramika üzərində 12:1 hesabı ilə qələbə qazanaraq yarımfinala yüksəlib. Finala gedən yolda bolqarıstanlı İvan Stoyanovu da mübarizədən kənarlaşdıran pəhləvanımız həlledici mərhələdə rusiyalı Fyodor Baltuyevlə güləşib. Rəqibin üstünlüyü ilə keçən görüş həmyerlimizin 3:7 hesablı məğlubiyyəti ilə başa çatıb.

Qadın güləşçilərin yarışında 46 kq çəkidə təmsilçimiz Gültəkin Şirinova 1/8 finalda finlandiyalı Jutta Ala-Ranta ilə qarşılaşmadan qalib ayrılaraq 1/4 finala yüksəlib. Yarımfinala gedən yolda həmyerlimiz Belarusu təmsil edən Tatyana Pertsavanı da 6:1 hesabı ilə məğlub edərək yarımfinala yüksəlib. G. Şirinova bu mərhələdə Fanni Viquronı (Fransa) da üstələyərək adını finala yazdırıb. Güləşçimiz həlledici qarşılaşmada Georgiana-Lavinia Antuka (Rumıniya) ilə münasibətinə aydınlıq gətirib. Lakin idmançımız uduzaraq festivalı gümüş medalla başa vurub.

61 kq çəkidə güləşən Mərziyə Sadıqova 1/8 finalda ukraynalı Manola Skobelska ilə qarşılaşıb. Görüşü qalib başa vuran idmançımız ardıcıl olaraq Alina Kasabyeva (Rusiya) və Elmas Çeliki (Türkiyə) məğlub edərək finala vəsiqə qazanıb. Finalda italiyalı Aurora Russo ilə qarşılaşan təmsilçimiz uduzaraq gümüş medala yiyələnib.

Qadın güləşçilərin mübarizəsində Elnurə Məmmədova (53 kq) gərgin keçən qarşılaşmada macarıstanlı Flora Vizidən üstün olub. Daha sonra Ukrayna və Rumıniya idmançıları üzərində əzmkar qələbə qazanan Elnurə finala adlayıb. Həlledici mərhələdə rəqib rusiyalı Polina Lukina olub. Görüşdə uduzan təmsilçimiz festivalı gümüş medalla başa vurub.

Sərbəst güləşçilərin mübarizəsində 48 kq çəki dərəcəsində yarışan Mircavad Nəbiyev 1/8 finalda rusiyalı Maqomedamin Bekbulatovla qarşılaşıb. Gərgin keçən görüşün yekununda mərhələ adlayan tərəf Rusiya idmançısı olub. Rusiyalı güləşçi finala yüksəldiyindən təmsilçimiz təsəlliverici görüşə qatılıb. Şükrü Korpeni (Türkiyə) 10:0 hesabı ilə məğlub edən M. Nəbiyev bürünc medal üçün Tomas Fişerlə (İsveçrə) qarşılaşıb. Qələbə qazanan təmsilçimiz fəxri kürsünün üçüncü pilləsinə qalxıb.

Yunan-roma güləşində ölkə hesabına daha bir medalı Nihad Məmmədli (55 kq) yazdırıb. Olivye Şkripçaka (Polşa) ilə görüşdən tam üstünlüklə ayrılaraq adını 1/4 finala yazdıran təmsilçimiz bu mərhələdə gürcü Romeo Beridzeyə uduzub. Təsəlliverici görüşdə fransalı Driss Nifriyə qalib gələn güləşçimiz 3-cü yer uğrunda mübarizə aparmaq imkanı əldə edib. Bürünc medal uğrunda görüşdə türkiyəli Ateş Bekirə 9:0 hesabı ilə qalib gələn Nihad üçüncü yeri tutub.

65 kq çəkidə mübarizə aparan Nigar Mirzəzadə isə yarışa almaniyalı Mari Trautmana qalib gəlməklə başlayıb. Ancaq 1/4 finalda güləşçimiz türkiyəli Nesrin Başa uduzub. Rəqibi finala yüksəldiyindən həmyerlimiz təsəlliverici görüşə qatılıb və Lusi Makqratla (Böyük Britaniya) güləşdən qalib ayrılaraq 3-cü yer uğrunda qarşılaşmada polşalı Zofia Polovçiki məğlub edərək festivalın bürünc medalına yiyələnib.

### Cüdoçularımız medal estafetini davam etdirdilər

Pəhləvanlarımızla yanaşı, medal estafetini cüdoçularımız da davam etdirməklə 3 yarış günündə 2 qızıl, 1 gümüş və 3 bürünc medal qazanıblar. Heydər Əliyev adına İdman Sarayında keçirilən, 40 ölkədən 297 cüdoçunun qatıldığı yarışda Azərbaycan 4 qız və 8 oğlan idmançı ilə təmsil olunub.

Qızıl medalı ölkəmizin aktivinə Turan Bayramov (60 kq) və Hüseyn Məmmədov (+90 kq), gümüş medalı Vüqar Talıbov (73 kq), bürünc medalları Şükran Zamanlı (55 kq), Gülşən Bəşirova (44 kq) və Məhərrəm İmamverdiyev (81 kq) yazdırıblar.

60 kq çəki dərəcəsində çıxış edən Turan Bayramov debütdə Adam Saferi (Avstriya) 20 saniyəyə ippona salıb. O, ardınca Mikos Tontinidisi də məğlub etməyə cəmi 13 saniyə vaxt sərf edib.

Cüdoçumuz finala gedən yolda türkiyəli Muhammed Demirellə üz-üzə gəlib və tatamidən qalib ayrılıb. Həlledici mərhələdə rəqib rusiyalı Rizvan Maqomadov olub. Maraqlı idman mübarizəsi şəraitində keçən görüşdən qalib ayrılan Turan "Bakı-2019"un qalibi olub.

Kişilərin +90 kq çəki dərəcəsində mübarizəsində Hüseyn Məmmədov 1/8 finalda Almaniya təmsilçisi Daniel Udsilauriyə ipponla qalib gələrək 1/4 finala yüksəlib. O, bu mərhələdə yunanıstanlı Aristotelis Aris Leonidisi vazari xalı ilə məğlub edərək yarımfinala adlayıb. Hüseyn finala gedən yolda moldovalı Alin Baqrinlə qarşılaşıb və ipponla qalib gəlib. Həlledici mərhələdə cüdoçumuz rusiyalı Axmed Maqomedovla qarşılaşmadan qalib ayrılaraq festivalı qızıl medalla başa vurub.

Oğlanların mübarizəsində 73 kq çəkidə yarışan Vüqar Talıbov 1/8 finalda belaruslu Denis Yavseyenkanı, 1/4 finalda Adam Kopeçkunu (Çexiya) məğlub edib. Festivalda millinin bayraqdarı olan cüdoçu finala gedən yolda türkiyəli Musa Şimşəklə qarşılaşıb. Bu dəfə 27 saniyəyə ipponla qalib gələn idmançı həlledici görüşdə italiyalı Luici Sentraççio ilə güləşib. Rəqibinə ipponla uduzan Vüqar "Bakı-2019"da gümüş medal qazanıb.

Qadınların yarışında 55 kq çəkidə mübarizə aparan Şükran Zamanlı mübarizəyə portuqaliyalı Migel Gaqodan üzərində qələbə ilə başlayıb. Lakin idmançımız uğurun davamını gətirə bilməyib və ikinci cəhdində macarıstanlı Bense Farkaşa uduzub. Buna baxmayaraq, təsəlliverici görüşlərə qatılan həmyerlimiz almaniyalı David İckes və hollandiyalı Laurens Vilmsdən güclü olub. Bürünc medal uğrunda görüşdə Şükran ukraynalı Vladislav Kolobovla qarşılaşmadan qalib ayrılaraq turniri 3-cü pillədə başa vurub.

44 kq çəkidə qüvvəsini sınayan Gülşən Bəşirova da Mariya Qonzalesə (İspaniya) qalib gəldikdən sonra Anastasiya Balabana (Bolqarıstan) məğlub olub. Təsəlliverici qarşılaşma isə Gülşənin xeyrinə yekunlaşıb. O, polşalı Natalya Stoklosanı mübarizədən kənarlaşdırıb. Cüdoçumuz 3-cü yer uğrunda hollandiyalı Joşlin Supusepa ilə üz-üzə gəlib. Rəqibini ipponla məğlub edən idmançımız bürünc medala sahib olub.

Digər təmsilçilərimizdən Məhərrəm İmamverdiyev (81 kq) 1/16 finalda rumıniyalı Vlad Topalaya (Rumıniya) ipponla qalib gəlsə də, növbəti mərhələdə ukraynalı Timur Valiyevə məğlub olub. Təmsilçimiz təsəlliverici görüşlərdə Karl Battendən (İsveç) və Samuel Retdən (Slovakiya) üstün olmaqla, bürünc medal qazanmaq şansı əldə edib. Üçüncü yer uğrunda israilli İftaç Badaşla üz-üzə gələn Məhərrəm qalib gələrək turnirin bürünc medalına yiyələnib.

### Səməd Məmmədlidən gümüş medal

Gimnastika yarışlarında isə Azərbaycan atleti Səməd Məmmədli XV Avropa Gənclər Yay Olimpiya Festivalının idman gimnastikası yarışlarında gümüş medal qazanıb. Gimnastımız dəstəli at yarışlarında uğurla çıxış edərək 13,600 xal toplayaraq bu nəticəyə nail olub.

Xatırladaq ki, Milli Gimnastika Arenasında keçirilən yarışlarda Avropanın 37 ölkəsinin idmançıları mübarizə aparıblar.

Sonda qeyd edək ki, Rusiya idmançıları komanda hesabında birinci yeri tutublar - 66 medal (28 qızıl, 17 gümüş, 21 bürünc). Böyük Britaniya yığması 25 medalla (11 qızıl, 12 gümüş, 2 bürünc) ikinci, Türkiyə isə 27 medalla (11 qızıl, 6 gümüş, 10 bürünc) üçüncü yerdə qərarlaşıb.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# “Jara-2019”: Festivalın sonuncu günü iştirakçılar qırmızı xalı üzərindən keçiblər





“Jara-2019” Beynəlxalq Musiqi Festivalının sonuncu günü - iyulun 28-də iştirakçılar qırmızı xalı üzərindən keçiblər.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva festivalın fəxri qonaqları arasında olub.

Qırmızı xalıdan keçən Leyla Əliyeva festivalla bağlı təəssüratlarını bölüşüb. Leyla Əliyeva “Jara” festivalının tamaşaçılara əsl bayram ab-havası yaşatdığını söyləyib. “Əfsuslar olsun ki, bu gün festivalın son günüdür. Burada böyük sevgi, məhəbbət və bayram əhvali-ruhiyyəsi var. Çox şadam ki, builki festival da böyük uğurla başa çatır. Bol musiqi, sevgi, əyləncə və isti münasibətlər - bütün bunlar insanları bir-birinə daha doğma edir. İnanıram ki, növbəti “Jara”da da bugünkü səmimiyyəti, hərarəti görə biləcəyik. Hər kəsə uğurlar arzulayıram”, - deyə Heydər Əliyev Fondunun vitse-prezidenti bildirib.

Xalq artisti Emin Ağalarov festivalın sonuncu günü səhnəyə məşhur gənc musiqiçilərin çıxacağını söyləyib və onların ifalarının tamaşaçılar tərəfindən böyük maraqla qarşılanacağına əminliyini ifadə edib. O vurğulayıb ki, festivalın sonuncu günü çox təmtəraqlı keçir. “Bu gün festivalın ən hərarətli günüdür. Bütün iştirakçılara təşəkkürümü bildirirəm və hər kəsi doğma “Jara” festivalında görməkdən çox şadam. Bugünkü konserti Timati bağlayacaq. Bu da çox möhtəşəm olacaq”, - deyə Emin Ağalarov qeyd edib.

Sonra məşhur ifaçılar və qruplar Emin, Timati, Nazima, TERNOVOY, Doni, Mişa Marvin, Klava Koka, Natan, Qriqori Leps, Ciqan, MOLLY, Loboda, HammAli & Navai, CYGO, Mari Kraymbreri, Rauf, Faiq, ZOMB, Nyuşa, Lyubov Uspenskaya, Rasa, Kosmos Girls, Elvin Qrey, Ellai, MOT, Aısel, Asammuell, Babək Məmmədrzayev, Samra, Fika, İsayya, Evqeniya Mayer, Velvet, Aleksandr Panayotov, Slava, Yuliya Kovalçuk, JONY, Elman, Andro, Gemini, Alessandra, Anna Sedokova, Timur Rodriqez, TEREZA və Serebro da qırmızı xalıdan keçərək fikirlərini jurnalistlərlə bölüşüblər.

# Heydər Əliyev Mərkəzinin parkında “MUZ-TV diskoteka”





Heydər Əliyev Mərkəzinin parkında “MUZ-TV diskoteka” keçirilib. AZƏRTAC xəbər verir ki, “Jara” Beynəlxalq Musiqi Festivalı çərçivəsində Rusiyanın “MUZ TV” telekanalının təşkil etdiyi diskotekada Emin, Svetlana Loboda, İrina Dubtsova, HammAli & Navai, Mari Kraymberi, MBAND, Mot, NATAN, Nyuşa, Ciqan, Rauf & Faik, Zvonki, Aleksey Çumakov, Yuliya Kovalçuk, RASA, Mitya Fomin, İrina Nelson, Maşa Veber və digər estrada ulduzları çıxış ediblər.

Minlərlə şəhər sakini və qonaqların əyləndiyi tədbirin tamaşaçıları arasında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da olub.





# “Jara-2019” Beynəlxalq Musiqi Festivalı başa çatıb



Bakıda, “Sea Breeze Resort” istirahət mərkəzində “Jara-2019” Beynəlxalq Musiqi Festivalına yekun vurulub.

AZƏRTAC xəbər verir ki, festivalın sonuncu gecəsində dünyaca məşhur estrada ulduzlarının ifaları ilə müşayiət olunan xoreoqrafik səhnəciklər, fərqli dekorasiyalar, işıq və lazer şousu təqdim edildi.

Musiqili gecədə məşhur estrada ulduzları və qruplar Emin, Timati, Nazima, TERNOVOY, Doni, Mişa Marvin, Klava Koka, Natan, Qriqori Leps, Ciqan, MOLLY, Loboda, HammAli & Navai, CYGO, Mari Kraymberi, Rauf, Faiq, ZOMB, Nyuşa, Lyubov Uspenskaya, Rasa, Kosmos Girls, Elvin Qrey, Ellai, MOT, Aısel, Asammuell, Babək Məmmədrzayev, Samra, Fika, İsayya, Evqeniya Mayer, Velvet, Aleksandr Panayotov, Slava, Yuliya Kovalçuk, JONY, Elman, Andro, Gemini, Alessandra, Anna Sedokova, Timur Rodriqez, TEREZA və Serebro bir-birindən maraqlı ifalarla çıxış etdilər.

Festival sənətçilərin səhnədə birgə ifası və atəşfəşanlıq ilə yekunlaşdı.

“Jara 2019” Beynəlxalq Musiqi Festivalında dörd gün ərzində əsl bayram ab-havası yaşandı. İki yüzdən çox məşhur estrada ulduzunun iştirak etdiyi budəfəki festival həm də yüksək səviyyədə təşkilatçılığı ilə yadda qaldı.

Artıq dördüncü ildir keçirilən festivalın təşkilatçıları müğənni və bəstəkar, Azərbaycanın Xalq artisti Emin Ağalarov, Rusiyanın Əməkdar artisti Qriqori Leps, “Russkoye radio”nun və “Qızıl qrammofon” mükafatının təsisçisi Sergey Kojevnikovdur.

# “Dəyərlərimizi öyrənək” mövzusunda intellektual yarışlar təşkil edilir





Hər bir xalqın formalaşmasının və təşəkkülünün təməlində milli-mənəvi dəyərlər sistemi dayanır. Xalq olaraq milli-mənəvi dəyərlərimizə, mədəniyyətimizə, tariximizə və adət-ənənələrimizə biganə münasibət göstərməməli, bu dəyərləri qoruyub-saxlamalıyıq. Tarixdən məlumdur ki, öz soykökünə, tarixinə, milli-mənəvi dəyərlərinə, inanclarına dönük çıxan millətlər və dövlətlər müəyyən zaman kəsiyində tarix səhnəsindən birdəfəlik silinmişlər. Hər hansı bir xalqı, dövləti məhv etmək üçün onu milli-mənəvi dəyərlərindən ayırmaq kifayətdir.

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində yaradılmış Mənəvi Dəyərlərin Təbliği Fondunun əsas fəaliyyət istiqamətlərindən biri də yeniyetmə və gənclər arasında milli-mənəvi dəyərlərin təbliğini həyata keçirmək, onların vətənpərvərlik ruhunda tərbiyə almasına dəstək göstərməkdir. Bu məqsədlə fond 2018-ci ildə Təhsil Nazirliyi ilə birlikdə Bakı şəhərində yerləşən məktəblərin şagirdlərinin iştirakı ilə “Mənəvi dəyərlərimiz məktəblilərin gözü ilə” mövzusunda inşa-yazı müsabiqəsi təşkil edilmişdi. Məktəblilərin yüksək səviyyədə iştirakı ilə keçirilmiş müsabiqə böyük maraq və rəğbətə səbəb olmuşdu.

Təhsil Nazirliyi ilə bu səmərəli əməkdaşlığın davam etdirilməsi, eləcə də məktəblilər arasında mənəvi dəyərlərimizin daha maraqlı, innovativ və müasir dövrün tələblərinə uyğun formada təbliğ edilməsi məqsədilə 2019-cu ildən etibarən “Dəyərlərimizi öyrənək” adlı intellektual yarışların keçirilməsinə başlanılıb. Ölkəmizin demək olar ki, əksər regionlarını əhatə edən yarışların artıq bir neçəsi (Bakı, Sumqayıt, Göyçay və Sabirabad rayonlarında) keçirilmiş, digər hissəsi isə məktəblilərin yay tətili başa çatdıqdan sonra keçiriləcəkdir. Ümumilikdə bu istiqamətdə cari ildə 9 regionda yarışların təşkili və ilin sonunda Bakı şəhərində böyük finalın keçirilməsi nəzərdə tutulub.

Yarışlarda şagirdlərə Azərbaycan tarixi, dili və ədəbiyyatı, tarixi-mədəni abidələrimiz, görkəmli şəxsiyyətlərimiz, milli adət-ənənələr və digər mövzularla bağlı suallar yönləndirilir. 6 nəfərdən ibarət komandalar şəklində təşkil olunan yarışlarda məktəblilər fəallıq nümayiş etdirərək yüksək intellektual səviyyələri ilə seçilirlər. Hər bir regional yarışın yekununda ilk 3 yeri tutan komandalar diplom, sertifikat və müxtəlif hədiyyələrlə mükafatlandırılır, qalib komanda isə 2019-cu ilin dekabr ayında Bakı şəhərində keçiriləcək finala vəsiqə qazanır.

Bu kimi yarışlarda iştirak etmək şagirdlərin bilik və bacarıqlarının artırılmasına töhfə verməklə yanaşı, onların milli-mənəvi dəyərlərimizin öyrənilməsinə marağını da artırır.

*Xəyalə MURADLI,*
*“Azərbaycan”*

## Mərkəzi icra hakimiyyəti orqanlarının, digər qurumların rəhbərlərinin və onların müavinlərinin 2019-cu ilin avqust ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəli

| Mərkəzi icra hakimiyyəti orqanları, digər qurumlar | Qəbul günü | Qəbulun keçirildiyi və əhatə etdiyi şəhər, rayonlar |
|---|---|---|
| **Ceyhun Bayramov** Təhsil naziri | 02 | **Astara,** Lənkəran, Lerik |
| **Firudin Qurbanov** Təhsil nazirinin müavini | 02 | **Masallı,** Yardımlı, Cəlilabad |
| **Əkbər Hacıyev** ARDNŞ-nin “Azəriqaz” İB-nin baş direktoru | 02 | **Şəmkir** |
| **Ramil İsgəndərov** ARDNŞ-nin “Azəriqaz” İB-nin baş direktorunun müavini | 02 | **Qazax,** Ağstafa |
| **Ruslan Əliyev** ARDNŞ-nin “Azəriqaz” İB-nin baş direktorunun müavini | 02 | **Tovuz** |
| **Toğrul Musayev** Ədliyyə nazirinin müavini | 02 | **Quba** |
| **Rüstəm Usubov** Baş prokurorun birinci müavini | 02 | **İsmayıllı,** Göyçay |
| **Sahib Məmmədov** İqtisadiyyat nazirinin müavini | 02 | **Cəlilabad** |
| **Namiq Babayev** Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurası sədrinin müavini | 02 | **Xaçmaz** |
| **Əvəz Qocayev** Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini | 02 | **Xızı** |
| **Əhməd Əhmədzadə** “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı” ASC-nin sədri | 07 | **Oğuz,** Şəki |
| **Əbülfəs Qarayev** Mədəniyyət naziri | 08 | **Salyan** |
| **Vaqif Əliyev** Mədəniyyət nazirinin birinci müavini | 08 | **Neftçala** |
| **Rafiq Bayramov** Mədəniyyət nazirinin müavini | 08 | **Biləsuvar** |
| **Məhərrəm Əliyev** Ədliyyə nazirinin müavini | 09 | **Şamaxı** |
| **Namiq Əsgərov** Baş prokurorun müavini | 09 | **Şəmkir,** Tərtər |
| **İntiqam Babayev** Gənclər və İdman nazirinin müavini | 09 | **Tovuz,** Ağstafa, Qazax |
| **Zakir Quliyev** “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı” ASC-nin sədr müavini | 09 | **Qəbələ** |
| **Rafiq Aslanov** “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı” ASC-nin sədr müavini | 09 | **İsmayıllı** |
| **Sahil Babayev** Əmək və Əhalinin Sosial Müdafiəsi naziri | 16 | **Tovuz** |
| **Anar Kərimov** Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini | 16 | **Ağstafa** |
| **Mətin Kərimli** Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini | 16 | **Qazax** |
| **Mikayıl Cabbarov** Vergilər naziri | 16 | **Quba,** Qusar, Xaçmaz, Şabran |
| **Qorxmaz Hüseynov** “Azərsu” ASC-nin sədri | 16 | **Qazax,** Ağstafa |
| **Niyazi Səfərov** İqtisadiyyat nazirinin müavini | 16 | **Masallı** |
| **Teyyub Cabbarov** “Azərsu” ASC sədrinin birinci müavini | 19 | **Şəmkir,** Gədəbəy |
| **Etibar Məmmədov** “Azərsu” ASC-nin sədr müavini | 20 | **Tovuz** |
| **Ramin Quluzadə** Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri | 22 | **Tovuz,** Qazax |
| **Əli Abdullayev** Nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini | 22 | **Ağstafa** |
| **Sahib Ələkbərov** Vergilər nazirinin müavini | 22 | **Qobustan,** Şamaxı, Ağsu |
| **Arzu Rəhimov** Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi | 22 | **Şəmkir,** Gədəbəy |
| **Mayıl Şahverdiyev** Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini | 22 | **Tovuz,** Qazax, Ağstafa |
| **Vüqar Əhmədov** “Azərişıq” ASC sədrinin vəzifəsini icra edən | 22 | **Gəncə,** Samux |
| **Ramil Yusifov** “Azərişıq” ASC sədrinin müavini | 22 | **Şəmkir** |
| **Azad Rəhimov** Gənclər və İdman naziri | 23 | **Göygöl,** Gəncə, Naftalan, Daşkəsən, Goranboy, Samux |
| **Şahin Mustafayev** İqtisadiyyat naziri | 23 | **Yardımlı** |
| **İnam Kərimov** Kənd Təsərrüfatı naziri | 23 | **Beyləqan,** Füzuli |
| **İlham Quliyev** Kənd Təsərrüfatı nazirinin müavini | 23 | **İmişli,** Saatlı |
| **Seyfəddin Talıbov** Kənd təsərrüfatı nazirinin müavini | 23 | **Ağcabədi,** Zərdab |
| **Sahir Məmmədxanov** Vergilər nazirinin birinci müavini | 23 | **Naftalan,** Gəncə, Goranboy, Göygöl, Samux, Daşkəsən, Kəlbəcər |
| **Rövşən Rzayev** Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri | 23 | **Gədəbəy** |
| **Fuad Hüseynov** Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini | 23 | **Ağstafa,** Qazax |
| **Sabir Əhmədov** Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini | 23 | **Tovuz** |
| **Saleh Məmmədov** Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri | 23 | **Şabran,** Siyəzən |
| **İsmayıl İsmayılov** Gənclər və İdman nazirinin müavini | 23 | **Şəmkir,** Gədəbəy |
| **Oruc Zalov** Daxili işlər nazirinin müavini | 24 | **Bərdə,** Naftalan, Ağcabədi, Tərtər, Ağdam, Şuşa, Laçın, Beyləqan, Füzuli, Xocavənd, Goranboy, Xocalı |
| **Mətin Eynullayev** Vergilər nazirinin müavini | 26 | **Gədəbəy,** Şəmkir, Tovuz, Ağstafa, Qazax |
| **Mübariz Qurbanlı** Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri | 27 | **Daşkəsən,** Gəncə, Kəlbəcər |
| **Siyavuş Heydərov** Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini | 27 | **Göygöl,** Samux |
| **Gündüz İsmayılov** Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini | 27 | **Naftalan,** Goranboy, Xocalı |
| **Fikrət Məmmədov** Ədliyyə naziri | 29 | **Abşeron,** Xızı, Siyəzən |
| **Rüstəm Şahbazov** Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin müavini | 29 | **İsmayıllı** |
| **Ramiz Rzayev** Ali Məhkəmənin sədri | 30 | **Xaçmaz** |
| **Hikmət Mirzəyev** Ali Məhkəmənin İnzibati-İqtisadi kollegiyasının sədri | 30 | **Qusar** |
| **Şahin Yusifov** Ali Məhkəmənin Cinayət kollegiyasının sədri | 30 | **Quba** |
| **Zakir Qaralov** Baş prokuror | 30 | **Quba,** Qusar |
| **Muxtar Babayev** Ekologiya və Təbii Sərvətlər naziri | 30 | **Lənkəran,** Astara |
| **Firdovsi Əliyev** Ekologiya və Təbii Sərvətlər nazirinin müavini | 30 | **Lerik** |
| **Rauf Hacıyev** Ekologiya və təbii sərvətlər nazirinin müavini | 30 | **Masallı,** Yardımlı |
| **Pərviz Şahbazov** Energetika naziri | 30 | **Gəncə,** Göygöl |
| **Samir Vəliyev** Energetika nazirinin müavini | 30 | **Goranboy,** Naftalan |
| **Elnur Soltanov** Energetika nazirinin müavini | 30 | **Gədəbəy,** Daşkəsən |
| **Oqtay Şirəliyev** Səhiyyə naziri | 30 | **Oğuz,** Qəbələ |
| **Elsevər Ağayev** Səhiyyə nazirinin müavini | 30 | **Zaqatala,** Balakən |
| **Rahim Əliyev** Səhiyyə nazirinin müavini | 30 | **Şəki,** Qax |
| **Hicran Hüseynova** Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri | 30 | **Xızı,** Siyəzən, Şabran |
| **Aynur Sofiyeva** Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini | 30 | **Xaçmaz,** Quba, Qusar |
| **Səfər Mehdiyev** Dövlət Gömrük Komitəsinin sədri | 30 | **Masallı,** Lənkəran |
| **İsmayıl Hüseynov** Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini | 30 | **Yardımlı** |
| **Əsgər Abdullayev** Dövlət Gömrük Komitəsi sədrinin müavini | 30 | **Lerik** |
| **Məleykə Abbaszadə** Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri | 30 | **Qusar** |
| **Vilayət Eyvazov** Daxili İşlər naziri | 31 | **Şəki,** Qax, Zaqatala, Balakən, Oğuz, Qəbələ |
| **Kərəm Həsənov** Əmlak Məsələləri Dövlət Komitəsinin sədri | 31 | **Oğuz** |
| **Rafiq Cəlilov** Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin müavini | 31 | **Qəbələ** |

**Qeyd:** *Vətəndaşların qaldırdıqları məsələlər qəbulu keçirən təşkilatların səlahiyyətlərinə aid olmalıdır.*

# Beynəlxalq aləm

## Nigeriyada dəfn mərasimində 65 nəfər öldürüldü



Nigeriyanın şimal-şərqində keçirilən dəfn mərasiminə silahlı basqın nəticəsində 65 nəfər həlak olub. Bu barədə BBC telekanalı xəbər verir.

Hadisə Borno əyalətinin paytaxtı Maydiquri yaxınlığındakı Nqanzai rayonunda baş verib. Yerli hökumətin başçısı Məhəmməd Bulama bildirib ki, "Boko Haram" terrorçu təşkilatının üzvləri dəfn mərasiminə toplaşmış insanlara avtomat silahlardan atəş açıblar.

Orada 21 nəfəri öldürən terrorçular qaçmağa çalışan daha 44 nəfəri kəndin ətrafında qətlə yetiriblər. 10 nəfər yaralanıb.

## ABŞ Milli Kəşfiyyat İdarəsinin direktoru vəzifəsinə namizədin adı açıqlandı



Prezident Donald Tramp ABŞ Milli Kəşfiyyat İdarəsinin direktoru vəzifəsinə namizədin adını açıqlayıb. Bu barədə "Alman dalğası" radiostansiyası xəbər verir.

Məlumata görə, ABŞ Prezidenti Milli Kəşfiyyat İdarəsinin direktoru vəzifəsinə respublikaçı konqresmen Con Retkliffin namizədliyini irəli sürəcəyini bildirib.

Xatırladaq ki, Milli Kəşfiyyat İdarəsinin hazırkı direktoru Daniel Kouts avqustun 15-də vəzifəsini tərk edəcək.

## Nyu Yorkda və Kaliforniyada atışma



ABŞ-ın Nyu York şəhərinin Bruklin rayonunda atışma baş verib. Nəticədə 1 nəfər ölüb, 11 nəfər yaralanıb. Bu barədə usa.one saytı xəbər verir.

Məlumatda bildirilir ki, yaralıların hamısı xəstəxanaya yerləşdirilib.

"New York Post" qəzetinin məlumatına görə, hadisə Bruklində Christopher və Hegeman Ave küçələrinin kəsişməsində yerləşən "Mendoza Park"da keçirilən şənlik zamanı baş verib.

Polis hadisəni törətməkdə şübhəli bilinən iki nəfəri axtarır. Kaliforniyanın şimalındakı Gilroy şəhərində "Gilyor Garlic Festival" qastronomik festivalında baş vermiş atışma nəticəsində isə azı 4 nəfər həlak olmuş, 15 nəfər yaralanmışdır. Qurbanlar arasında 6 yaşlı uşaq var. Bu barədə CBS telekanalı xəbər verir.

Məlumata görə, festival iştirakçılarına atəşi 25-30 yaşlı kişi açmışdır. Cinayətkarın öldürüldüyü bildirilir.

## Çində 38 nəfər torpaq sürüşməsinin qurbanı oldu



Çinin cənub-qərbində yerləşən Quyçjou əyalətində baş vermiş torpaq sürüşməsi nəticəsində 38 nəfər həlak olmuş, 13 nəfər itkin düşmüşdür. Bu barədə Çinin mərkəzi televiziyası məlumat vermişdir. Hadisənin Şuyçen qəzasında baş verdiyi bildirilir. 23 təsərrüfata ziyan dəymiş, 20-dən çox tikili, o cümlədən yaşayış evləri torpaq altında qalmışdır.

11 nəfər müxtəlif bədən xəsarətləri ilə xəstəxanalara yerləşdirilmişdir.

Axtarış-xilasetmə əməliyyatı davam edir.

## Ermənistanda benzin daşıyan qatar yandı



Ermənistanın şimalında yerləşən Lori vilayətində Gürcüstanla sərhəddəki Baqrataşen kəndindən Gümri şəhərinə benzin daşıyan qatar yanmışdır. Bu barədə "RİA Novosti" agentliyi xəbər verir.

Məlumata görə, iki 50 tonluq sistern İrəvanın 155 kilometrliyində yerləşən Tumanyan şəhərinin dəmiryolu stansiyası yaxınlığında yanmışdır. 27 vaqondan 17-də benzin olduğu bildirilir.

## Kabildə hökumət başçısı vəzifəsinə namizədin ofisinə hücum edildi



Əfqanıstanın Baş Naziri vəzifəsinə namizəd Əmrulla Salehin Kabildəki ofisi silahlıların hücumuna məruz qalmışdır. Bu barədə "Tolo News" telekanalı xəbər verir.

Əfqanıstan Daxili İşlər Nazirliyinin nümayəndəsi Nüsrət Rəhiminin dediyinə görə, dörd terrorçu özəl universitetin yaxınlığında partlayış törətdikdən sonra Salehin başçılıq etdiyi "Green Trend" ofisində atəş açmışlar. Siyasətçi həmin an binada olmuş və xəsarət almışdır. Həlak olanların sayı 20 nəfərə çatmışdır. Onların əksəriyyəti Salehin köməkçiləridir. 50 nəfər yaralanmışdır.

Polis hücumu dəf etdikdən sonra dörd terrorçunu zərərsizləşdirmişdir. Binadan 150-dən çox dinc sakin təxliyə edilmişdir.

Hücuma görə hələ ki heç bir qruplaşma məsuliyyəti üzərinə götürməmişdir.

# Yol polislərinin vaxtında müdaxiləsi nəticəsində yanan maşından çıxarılan xarici turistlərin həyatı xilas edilib

İyulun 29-da səhər saatlarında Bakı-Qazax magistral yolunun 35-ci kilometrliyində Vüsal Əliyevin idarə etdiyi "Mercedes" markalı mikroavtobusda qısaqapanma nəticəsində tüstülənmə baş verib.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, avtomobilin elektrik sisteminin sıradan çıxması səbəbindən nəqliyyat vasitəsinin qapıları avtomatik olaraq kilidlənib və sərnişinlər salonda köməksiz vəziyyətdə qalıblar. Yanan maşının tüstüsünün salona dolması səbəbindən sərnişinlər boğulma təhlükəsi ilə üzləşiblər. Bu zaman ərazidə xidmət aparan Baş Dövlət Yol Polisi İdarəsinin Yol Patrul Xidməti Alayının 6-cı taqımının əməkdaşları nəqliyyat vasitəsinə yaxınlaşaraq maşında olan 10 sərnişin və sürücünü avtomobilin pəncərəsindən evakuasiya ediblər. Həyatları xilas edilən şəxslərə YPX əməkdaşları tərəfindən ilkin yardım göstərilib. Yol polislərinin operativliyi nəticəsində yanğının böyüməsinin qarşısı alınıb və maşın vaxtında söndürülüb.

Araşdırma zamanı maşında olan şəxslərin ölkəmizə səfərə gələn xarici turistlər olduğu və onların Qobustan dövlət tarixi-bədii qoruğuna ekskursiyaya getdikləri müəyyən edilib.

Hadisəyə vaxtında müdaxilə edildiyindən xəsarət alan olmayıb. Turistlər operativ reaksiya göstərərək onların yanan maşından çıxarılmasını təmin etdikləri üçün polis əməkdaşlarına təşəkkürlərini bildiriblər.

Hadisədən sonra turistlərin yol polisləri tərəfindən əraziyə çağırılan digər avtobusla ekskursiyaları davam etdirmələrinə şərait yaradılıb və onlar yol patrul avtomobili ilə müşayiət ediliblər.

# Paytaxtda 35 dərəcə isti olacaq




Azərbaycanda iyulun 30-na gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava yağmursuz keçəcək. Mülayim cənub küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 22-25°, gündüz 31-36° isti, Bakıda gecə 22-24°, gündüz 33-35° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı - 756 millimetr civə sütunundan 752 millimetr civə sütununa enəcək, nisbi rütubət gecə 60-65, gündüz 40-45 faiz təşkil edəcək.

Abşeron çimərliklərində mülayim cənub küləyi əsəcək. Dəniz suyunun temperaturunun şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulbada 24-25°, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil, Şıxda 25-26° isti olacağı gözlənilir.

Naxçıvan Muxtar Respublikasında hava yağmursuz keçəcək. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 18-23°, gündüz 33-38° isti olacaq.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin günün birinci yarısında bəzi yerlərdə şimşək çaxacağı, qısamüddətli az yağış yağacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 12-17°, gündüz 20-25° isti olacağı ehtimal edilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava yağmursuz keçəcək. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 32-37° isti olacağı proqnozlaşdırılır.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə bəzi yerlərdə şimşək çaxacağı, qısamüddətli az yağış yağacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 16-21°, gündüz 28-33° isti, dağlarda gecə 10-15°, gündüz 18-23° isti olacağı bildirilir.

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava yağmursuz keçəcək. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 33-38° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava yağmursuz keçəcək. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-23°, gündüz 30-35° isti, dağlarda gecə 15-19°, gündüz 22-27° isti olacağı ehtimalı var.


## BİLDİRİŞ

*"Azərbaycan Sənaye Korporasiyası" ASC Tbilisi prospekti, 33 ünvanında yerləşən yeni inzibati binanın konfrans zalı və yeməkxanası üçün mebel avadanlıqlarının alınması və quraşdırılması işlərinin satın alınması üçün təkliflər sorğusu üsulu ilə satınalma keçirir.*

Maraqlanan təşkilatlar +994 (55) 204-77-77 telefon nömrəsinə və ya sadig.shahkaramov@ask.gov.az elektron ünvanına müraciət edə bilərlər.

Bakı şəh., Yasamal r-nu, Cəfər Cabbarlı küçəsi, 40C

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 19 iyun 2019-cu il tarixli nömrəsində Qobustan Rayon İcra Hakimiyyəti tərəfindən Qobustan şəhərində istismar müddəti başa çatmış 6 ikimərtəbəli 8 mənzilli binada yaşayan sakinlərin mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə 48 mənzilli yaşayış binasının tikintisi ilə əlaqədar elan edilmiş açıq tenderin vaxtı 16 avqust 2019-cu il tarixədək uzadılır.

***Tender komissiyası***

## BİLDİRİŞ

*"Azərbaycan İnvestisiya Şirkəti" ASC ofis texnikasının və kompüterlərin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir.*

Maraqlanan şirkətlər 488-80-10 telefon nömrəsi ilə əlaqə saxlaya bilər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 01.08.2019-cu il saat 17:00-dək qəbul olunur.

***Tender komissiyası***

## BİLDİRİŞ

*Gədəbəy Rayon İcra Hakimiyyəti tərəfindən "Gədəbəy rayonu, Mir Cəlal Paşayev küçəsi, 3 ünvanında yerləşən Gədəbəy Rayon İcra Hakimiyyəti binasının əsaslı təmiri və genişləndirilməsi" obyekti üzrə nəzərdə tutulmuş təmir-tikinti işlərinin yerinə yetirilməsinin təkliflər sorğusu ilə satın alınması həyata keçirilir.*

Maraqlanan təşkilatlar (022) 326-01-47 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 07 avqust 2019-cu il saat 17:00-a kimi qəbul olunur.

Ünvan: Gədəbəy rayonu M.C.Paşayev küçəsi, 3.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün mənzillərin satın alınması ilə əlaqədar "Azərbaycan" qəzetinin 20 iyul 2019-cu il tarixli sayında verilmiş elanında "Lənkəran şəhəri, Lerik şəhəri və Astara rayonunda iki və üç otaqlı" sözləri "Lənkəran şəhəri, Lerik şəhəri və Astara rayonunda bir, iki və üç otaqlı" sözləri ilə əvəz edilsin.

***Tender komissiyası***


# Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində atəşkəs rejimini 17 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 17 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonunun Voskevan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Cəvahirli, Yusifcanlı, Füzuli rayonunun Qaraxanbəyli, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Şamaxının qədim kəndi haqqında kitab nəşr olunub

"Elm və təhsil" nəşriyyatı Cavid Əhmədovun "Tarixin daş yaddaşı: Göylər" adlı publisistik-araşdırma kitabını nəşr edib.

Kitabda Şamaxı rayonunun ən böyük kəndlərindən olan Göylərin tarixi keçmişi, bu günü, görkəmli insanlarının həyat və fəaliyyəti, qədim yaşayış məskəninin toponimikası, sakinlərinin etnoqrafiyası, dialekt və şivəsi araşdırılıb, eləcə də Birinci Dünya müharibəsində və Qarabağ savaşında kənd sakinlərinin keçdiyi döyüş və qəhrəmanlıq yoluna nəzər salınıb.

Müəllif Göylər kəndinin keçmişini ümumi Azərbaycan tarixi kontekstində tədqiqata cəlb edib, qədim yaşayış məskəninin zamanının yaddaşında qoyduğu "daş izləri" özünəməxsus şəkildə qələmə alıb.

Kitab təkcə geniş oxucu kütləsi üçün yox, mütəxəssislər üçün də dəyərli mənbədir.


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

*"145 Group" MMC-yə məxsus 1503977081 nömrəli VÖEN itdiyi üçün etibarsız sayılır.*


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi agentliyin Texniki İdarəsinin mütəxəssisi Səidə Xıdırovaya anası

**ZAHİRƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azərbaycan" nəşriyyatının kollektivi iş yoldaşları Oqtay İsrafilova həyat yoldaşı

**MATƏB XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı şəhəri Xətai Rayon Məhkəməsinin sədri Nazim Tağıyev və məhkəmənin kollektivi Sumqayıt Apelyasiya Məhkəməsinin hakimi Fuad Məmmədova anası

**VƏZİFƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Kürdəmir Rayon Məhkəməsinin kollektivi Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini Vilayət Zahirova anası

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Lənkəran Ağır Cinayətlər Məhkəməsinin kollektivi Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini Vilayət Zahirova anası

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Samux Rayon Məhkəməsinin kollektivi Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini Vilayət Zahirova anası

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR

Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə

e-mail:

secretary@azerbaijan-news.az

az.reklam@mail.ru

azerbaijan-news@mail.ru

www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8906
Sifariş 2497
Qiymətı 40 qəpik